Xalqın qəzeti!
# Xalq qəzeti
№ 110 (30514) 26 may 2024-cü il, bazar
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycan keçmiş ittifaq ortaqları ilə dostluq və əməkdaşlığa sadiqdir

## Prezident İlham Əliyev Ukrayna səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yuri Qusevin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Ukrayna Prezidenti Volodimir Zelenskinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Prezident Volodimir Zelenski ilə bir neçə gün əvvəl telefon danışığını xatırladaraq bu müstəvidə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə toxunulduğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimizin müstəqilliklərinin bərpasından bəri Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin formalaşdığı və ölkələrimiz arasında ikitərəfli əsasda yaxşı əlaqələrin olduğu qeyd edildi, həmçinin dövlətlərimizin bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi vurğulandı.

Səfir Ukraynaya göstərilən humanitar dəstəyə, xüsusilə Ukraynadan olan uşaqların Azərbaycanda reabilitasiyası üzrə təşkil olunan layihələrə görə təşəkkürünü bildirdi.

Yuri Qusev ötən gün Azərbaycanın Laçın şəhərinə səfər etdiyini və burada görülən bərpa-quruculuq işlərinin onda böyük təəssürat yaratdığını deyərək, İrpen və Laçın şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması məsələsini qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

1.1. Abbasov Ceyhun Məcid oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin 2021-ci il 19 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.2. Abbasov Rəcəb Müstəcəb oğlu, 1962-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2022-ci il 10 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.3. Abbaszadə Nurmurad Əbülfət oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 8 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.4. Abdullayeva Xatirə Mahmud qızı, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 19 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.5. Abdullayeva Qızqayıt Budaq qızı, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 12 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.6. Abdurəhmanova Ellada Gülağa qızı, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qəbələ Rayon Məhkəməsinin 2023-cü il 8 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.7. Ağayev Yaşar Bəkir oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şirvan Şəhər Məhkəməsinin 2021-ci il 8 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.8. Axundov Aqşin Şükür oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 7 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

*(ardı 4-cü səhifədə)*

# Azərbaycanla sərhəd xətti – Ermənistandakı ajiotaj motivləri

## Sülh istəməyənlərin “arqumentləri”




**Ermənistanda Azərbaycanla dövlət sərhədinin delimitasiyası və demarkasiyası fonunda qaldırılmış süni ajiotaj davam edir və davam etdikcə yeni “çalarlar” alır. Müxtəlif iddiaların səsləndiyini görürük. Belə təəssürat yaranır ki, başlanılmış işin sona çatmasını arzulamayanlar ciddi şəkildə hərəkətə keçiblər. Bəs, onların məqsədləri nədir?**

Əslində, nəyə nail olmaq istədikləri məlumdur. Çalışırlar ki, ümumən sülh prosesi pozulsun. Bu düşüncə sahibləri hər şeyi inkar edən arqumentlər irəli sürür, vəziyyətdən çıxış yolu müəyyənləşdirməyə gələndə dediklərinin heç bir məna daşımadığı görünür.

Məlumdur ki, Ermənistan hakimiyyəti hələ delimitasiya və demarkasiya işləri başlamazdan xeyli əvvəl sabiq SSRİ Silahlı Qüvvələrinin Baş Qərargahının 1970-ci illərə aid xəritələrinin əsas götürülməsinin vacibliyini vurğulayırdı. Elə indinin özündə də mövcud istiqamətdə fikirlər səslənir. Hərçənd, hazırda məsələyə fərqli tərzdə yanaşıldığını söyləmək üçün əsaslar var.

Hər bir halda, ölkəmiz öz maraqları üzrə çıxış edir və cəmiyyətimiz əmindir ki, görülən işlər xalqımızın mənafeyinə uyğundur. Yəni, bütün sahələrdə olduğu kimi, bu məsələdə də xalq-hakimiyyət vəhdəti, daha doğrusu, insanlarımızın öz hakimiyyətinə inamı var.

*(ardı 6-cı səhifədə)*

# Özəl bölmə Qarabağın dirçəlişinə töhfəsini artırır

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) Qarabağ Ərazı Vergilər Baş İdarəsinin rəisi Ələkbər Məmmədovun jurnalistlərə bildirdiyinə görə, Azərbaycanın işğaldan azad edilən ərazilərində keçmiş məcburi köçkünlərin məskunlaşdırılması, eyni zamanda, yeni iş yerlərinin yaradılması istiqamətində qısa müddətdə genişmiqyaslı layihələr reallaşdırılıb. Təkcə bu yaxınlarda Ağdam rayonunda yerləşən Şahbulaq daş karxanasının istifadəyə verilməsi ilə 227 nəfər işlə təmin edilib. Bunun uğurlu bir göstərici olduğunu deyən Ə.Məmmədov həmin müəssisə tam gücü ilə fəaliyyətə başlayandan sonra iş yerlərinin sayının daha da artacağını vurğulayıb.**



İdarəsi rəisi Kəlbəcər və Laçında 5 kiçik su elektrik stansiyasının bərpasının yaxın vaxtlarda başa çatdırılacağını, Xankəndi şəhəri, Xocavənd, Xocalı və Ağdərə rayonlarında bir sıra təsərrüfat subyektlərinin fəaliyyətə başlayacağını, ümumiyyətlə, cari il ərzində Qarabağda 45 təsərrüfat subyektinin işə salınacağını da diqqətə çatdırıb. Ə.Məmmədov hazırda bu iqtisadi rayonda fəaliyyət göstərən 25 təsərrüfat subyektində 50 faizdən çoxu məcburi köçkün olmaqla 252 nəfərin işlə təmin edildiyini bildirib.

*(ardı 7-ci səhifədə)*

# II Qaregin – üzü libasından qara



Səhifə ⇨ 6

# Elektromobillər və “yaşıl” hədəflər



Səhifə ⇨ 9

# Büdcə tərəqqinin baş generatorudur



Səhifə ⇨ 7

# Prezident İlham Əliyev İtaliya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luka Di Canfrançeskonun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Luka Di Canfrançesko İtaliya Prezidenti Sercio Mattarellanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Prezidentinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin xüsusi xarakter daşıdığı və strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi vurğulandı.

Səfir əlaqələrimizin bütün sahələrdə, o cümlədən elm və təhsil sahəsində uğurla inkişaf etdiyini deyərək, İtaliya universitetlərinin Azərbaycanda açılması istiqamətində aparılan işləri məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev İtaliyanın Azərbaycanın Avropa İttifaqına üzv ölkələr arasında əsas ticarət tərəfdaşı olduğunu vurğuladı.

Görüşdə ölkələrimiz arasında siyasi və humanitar əlaqələrin, iqtisadi və təhsil sahəsindəki əməkdaşlığın dinamik surətdə inkişaf etməsindən məmnunluq ifadə olundu. Azərbaycan ilə İtaliya arasında əlaqələrin xüsusilə enerji sahəsindən başlandığı, sonra müxtəlif sahələri, o cümlədən mədəniyyət, informasiya-kommunikasiya texnologiyaları, nəqliyyat və digər sahələri əhatə etdiyi bildirildi.

Söhbət zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində dost və tərəfdaş ölkə olan İtaliyanın şirkətlərinin yaxından iştirakı məmnunluqla vurğulandı.

Görüşdə Orta Dəhlizin inkişafı və bu çərçivədə əməkdaşlığın perspektivləri müzakirə olundu.

Azərbaycan–Avropa İttifaqı əlaqələri və Avropa İttifaqına üzv ölkə olaraq İtaliyanın bu prosesdə Azərbaycana dəstəyi məsələsi də qeyd edildi.

# İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

**Əlahəzrət!**

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2024-cü il**

# Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab To Lama

**Hörmətli cənab Prezident,**

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. Biz sağlam təməllər üzərində qurulmuş bu münasibətlərin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk.

İnanıram ki, Azərbaycan-Vyetnam əlaqələrinin dost xalqlarımızın mənafeləri naminə daha da genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də çoxtərəfli müstəvidə qarşılıqlı hörmət və dəstəyə əsaslanan əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Amerika xalqı adından Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikası ilə ikitərəfli münasibətlərinə dəyər verir. Diplomatik əlaqələrimizin 30 ildən artıq bir dövründə biz enerji təhlükəsizliyi, regional təhlükəsizlik və terrorçuluqla mübarizə də daxil olmaqla birgə maraqlara söykənən tərəfdaşlıq qurmuşuq. Hər iki ölkəmiz Əfqanıstanda çiyin-çiyinə döyüşmüş və birlikdə Cənub Qaz Dəhlizini inkişaf etdirməklə regional enerji təhlükəsizliyi ilə bağlı çağırışlara sinə gərmişdir. Biz, həmçinin Rusiyanın davam edən qəddar müharibəsi fonunda Azərbaycanın Ukraynaya göstərdiyi həyati əhəmiyyətli humanitar yardımı da yüksək qiymətləndiririk.

Prezidentliyinizin beşinci müddətinin başladığı bir vaxtda Amerika Birləşmiş Ştatları regional və qlobal məsələlərdə, o cümlədən iqlim dəyişikliyi və yaşıl enerjiyə keçid sahəsində qarşılıqlı əməkdaşlığımızı dərinləşdirməyə səy göstərəcəkdir. Biz Azərbaycanı demokratik idarəetmənin gücləndirilməsi və bütün azərbaycanlıların insan hüquqları və fundamental azadlıqlarının qorunması üçün əsaslı addımlar atmağa dəvət edirik. Biz noyabrda Bakıda keçiriləcək COP29 çərçivəsində iqlimlə bağlı birgə məqsədlərimizin irəlilədilməsini arzulayırıq və tədbirin uğurla keçirilməsində Azərbaycana dəstək verməyə hazırıq.

Azərbaycanın müstəqilliyinin qeyd edildiyi bu bayramda Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə dəstəyini bir daha təsdiq edir. Biz Azərbaycanın və Ermənistanın davamlı və ləyaqətli sülhün təmin edilməsinə yönəlmiş addımlarını alqışlayır və bu səyləri dəstəkləməyə hazırıq. Ən əsası isə biz Azərbaycan xalqı ilə tərəfdaşlığımızı inkişaf etdirməyi və əlaqələri möhkəmləndirməyi arzulayırıq.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı yetirirəm.

**Hörmətlə,**

***Coz f BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Sizə və Sizin simanızda dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Hazırda Çin–Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərində dinamik inkişaf tendensiyası müşahidə olunur. İki ölkə arasında siyasi etimad möhkəmlənir, "Bir kəmər, bir yol"un birgə tikintisi çərçivəsində əməkdaşlıq dərinləşir və beynəlxalq arenada sıx qarşılıqlı fəaliyyət həyata keçirilir. Mən Çin–Azərbaycan münasibətlərinin inkişafına yüksək diqqət yetirirəm və iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə dərinləşdirilməsi və ikitərəfli əlaqələrin yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Azərbaycana tərəqqi və qüdrət, onun xalqına isə xoşbəxtlik və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

***

Hörmətli İlham Heydər oğlu!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan sosial-iqtisadi inkişaf istiqamətində hamı tərəfindən qəbul edilən uğurlar qazanıb, dünya arenasında layiqli nüfuza malikdir və beynəlxalq gündəlikdəki mühüm məsələlərin həllində fəal iştirak edir.

Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, gələcəkdə də bütün sahələrdə məhsuldar ikitərəfli əməkdaşlığı, o cümlədən regional məsələlərdə səylərin əlaqələndirilməsini planlı şəkildə artırmağa birgə davam edəcəyik. Bu, şübhəsiz ki, dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər dənizində təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi məcrasında davam edir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən cansağlığı və uğurlar, bütün Azərbaycan vətəndaşlarına isə xoşbəxtlik və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Siz və Azərbaycan xalqı Müstəqillik Gününüzü qeyd edərkən mən və həyat yoldaşım Zati-alinizə və xalqınıza səmimi təbriklərimizi çatdırmaqdan böyük məmnunluq duyuruq.

Mən xalqlarımız arasındakı əlaqələri yüksək qiymətləndirirəm və ümid edirəm ki, ölkələrimiz gələcək nəsillərimizə fayda verəcək mühüm qlobal məsələlərdə, istər sülh və rifah, istərsə də ətraf mühit və iqlim dəyişikliyi məsələlərində sıx əməkdaşlığı davam etdirəcəklər.

Mən və həyat yoldaşım fürsətdən istifadə edərək milli bayramınız münasibətilə Sizə və bütün azərbaycanlılara ən xoş arzularımızı çatdırırıq.

***Əlahəzrət III ÇARLZ,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kralı***

**Hörmətli Prezident, Əziz Qardaşım!**

Zati-alinizi və can Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə xalqım adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan indiyə qədər keçdiyi yol bizi qürurlandırır.

Türkiyə olaraq kədərdə də, sevincdə də bir olduğumuz qardaş Azərbaycanın 2023-cü ilin sentyabr ayında ərazi bütövlüyünü uğurla bərpa etməsindən sonrakı ilk Müstəqillik Günündə duyduğu haqlı qürur və sevincini ürəkdən bölüşürük. Azərbaycanın həm regionda, həm də yaxın coğrafiyada nail olduğu irəliləyişlərlə daim fəxr edir və yüksək səviyyəli strateji əlaqələrimizi "Bir millət, iki dövlət" ruhu ilə daha da gücləndirmək istiqamətindəki birgə iradədən böyük məmnunluq hissi keçiririk.

Fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı və xoşbəxtlik diləyir, qardaş Azərbaycan xalqının xoş günləri və rifahı üçün ən səmimi arzularımı bir daha ifadə edirəm.

**Dərin hörmətlə,**

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Zati-alinizi ölkənizin Müstəqillik Günü münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına isə davamlı inkişaf, rifah arzu edirəm.

Zati-alinizə xoş arzularımızı və ehtiramımızı bildiririk.

**Qardaşınız**,

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Mən, eyni zamanda, fürsətdən istifadə edərək 2024-cü ilin noyabrında Bakıda keçiriləcək BMT-nin 29-cu İqlim Dəyişikliyi Konfransına (COP29) ev sahibliyi etməyiniz münasibətilə Sizi təbrik edir və bununla əlaqədar intensiv hazırlıq işlərində Sizə uğurlar diləyirəm.

Cənubi Qafqazda sülh, sabitlik və rifah Avstriya üçün xüsusi önəm kəsb edir. Bununla yanaşı, 2023-cü ildə ölkələrimiz arasında iqtisadi əlaqələr sevindirici şəkildə intensivləşmişdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə şəxsi rifah, həmçinin Azərbaycan xalqına xoşbəxt və dinc gələcəklə bağlı ən gözəl arzularımı çatdırıram.

**Hörmətlə,**

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

***

**Cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə öz adımdan, İspaniya hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, sevimli Azərbaycan xalqına isə sülh və rifah arzu edirəm.

**Dərin hörmət və ehtiramla,**

***VI FELİPE,***
***İspaniyanın Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi, cansağlığı, əmin-amanlıq arzularımı çatdırıram.

**Hörmətlə,**

***FİLİP,***
***Belçikalıların Kralı***

***

**Möhtərəm cənab Prezident!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi bildirir və Azərbaycan xalqına firavanlıq arzu edirəm.

**Hörmətlə,**

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və ölkənizin xalqına ən səmimi təbriklərimi çatdırıram.

Çex Respublikası Azərbaycan Respublikası ilə qarşılıqlı əlaqələrin səviyyəsini yüksək qiymətləndirir. Əminəm ki, ölkələrimiz arasında mövcud əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram.

**Hörmətlə,**

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə təbriklərimi çatdırıram.

Sizə cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Qazaxıstan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Respublikanızın suveren inkişafı tarixində əlamətdar olan bu gün azərbaycanlıların xüsusi qürur mənbəyidir, ölkənin birliyini və həmrəyliyini, davamlı inkişaf və tərəqqi yolu ilə inamlı irəliləyişini təcəssüm etdirir.

Azərbaycanın dövlətçilik əsaslarının və beynəlxalq nüfuzunun möhkəmləndirilməsi üzrə böyük nailiyyətlər bu tarixi günü xüsusi rəmzlə tamamlayır.

Qazaxıstanda qardaş Azərbaycanın uğurlarını böyük ruh yüksəkliyi ilə qarşılayır, dostluq və qarşılıqlı dəstək ruhunda çoxtərəfli əməkdaşlığın dərinləşdirilməsinə böyük diqqət yetirirlər. Əminəm ki, Qazaxıstan-Azərbaycan strateji tərəfdaşlığı və müttəfiqliyi bir-birinə yaxın olan xalqlarımızın tərəqqisi naminə bundan sonra da möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə milli lider kimi fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və bütün azərbaycanlıları Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Ölkəniz əsas bayramını Sizin müstəqil, suveren dövlət quruculuğu kursunuz sayəsində əldə olunmuş yüksək iqtisadi inkişaf nəticələri və beynəlxalq arenada uğurlarla qarşılayır.

Bu yaxınlarda dost Azərbaycana səfərimi səmimiyyətlə xatırlayıram. Səfər zamanı bizim üçün mühüm olan məsələlərin geniş spektrini etimada əsaslanan və konstruktiv məcrada müzakirə etdik.

Geniş məzmunlu danışıqların yekunları strateji tərəfdaşlığın səviyyəsini təsdiqlədi, Minsk ilə Bakı arasında çoxtərəfli qarşılıqlı fəaliyyətin böyük potensialını nümayiş etdirdi.

Hörmətli İlham Heydər oğlu, Sizə və ailənizə möhkəm cansağlığı, səadət və əmin-amanlıq, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Türkmənistan xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə və Sizin simanızda bütün qardaş Azərbaycan xalqına səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bu gün Azərbaycan Respublikası tərəqqi və dinamik inkişaf yolu ilə inamla addımlayır, regional və beynəlxalq proseslərdə mühüm rol oynayır.

Əminik ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mehriban qonşuluğa, dostluğa və qarşılıqlı anlaşmaya əsaslanan qardaşlıq münasibətləri xalqlarımızın işıqlı gələcəyi naminə bundan sonra da dinamik şəkildə inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi təbrik edirəm.

Bu gün müstəqil Azərbaycanın özünün müasir tarixində həm əhalinin rifah halının yüksəldilməsində, həm də güclü dövlətin qurulmasında əldə etdiyi böyük uğurların şahidi oluruq. Azərbaycan hazırda beynəlxalq arenada sanballı yerə malikdir. Azərbaycanlı qardaşlarımızın uğurlarına həmişə şadıq.

Əminəm ki, Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri iki xalqın rifahı naminə gələcəkdə də ardıcıl inkişaf edəcəkdir.

İcazə verin, Sizə möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayım.

**Hörmətlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli Prezident!**

Azərbaycanın Müstəqillik Gününün ildönümünün qeyd olunması münasibətilə Zati-alinizə və dost Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyur, ölkənizə tərəqqi və firavanlıq arzulayıram.

Ölkələrimizi möhkəm dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Ümidvaram ki, dost ölkələrimiz arasında dinamik inkişaf edən münasibətlər xalqlarımızın ümumi maraqları naminə birgə fəaliyyətimiz və səmərəli əlaqələrimiz sayəsində bundan sonra da ardıcıl şəkildə möhkəmlənməyə davam edəcəkdir.

Hörmətli cənab Prezident, Sizə olan ən yüksək ehtiramımla yanaşı, səmimi salamlarımı, möhkəm cansağlığı, xoşbəxtlik və dost Azərbaycan xalqının davamlı rifahı, tərəqqisi ilə bağlı ən xoş arzularımı da qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi, xalqınıza tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Xorvatiya ilə Azərbaycanı çoxillik sıx əməkdaşlıq və dostluq əlaqələri bağlayır. İnanıram ki, biz qarşıdakı dövrdə ümumi əlaqələrimizi inkişaf etdirmək istiqamətində çalışmağa davam edəcəyik.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Sizi Ukrayna xalqı adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Bu gün Azərbaycan inkişaf yolu ilə inamla addımlayır, qlobal arenada mövqelərini möhkəmləndirir və beynəlxalq səviyyədə tanınmış ərazilərini geri qaytarıb. Rusiya Federasiyası ilə müharibə məcburiyyətində qalan Ukrayna da buna can atır.

Ukrayna və Azərbaycanın bir-birinin müstəqilliyi və ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəkləməsi son dərəcə vacibdir. Fürsətdən istifadə edərək Ukrayna üçün həlledici məqamda göstərilən köməyə görə, cənab Prezident, Sizə və Azərbaycan xalqına minnətdarlığımı bildirirəm.

Qarşılıqlı maraq doğuran bütün sahələrdə Ukrayna-Azərbaycan tərəfdaşlığının möhkəmlənməsinə töhfə verən şəxsi konstruktiv dialoqumuzu yüksək qiymətləndirirəm. Ona görə də mən Sizin cari ilin iyun ayında İsveçrədə keçiriləcək birinci Sülh Sammitində iştirakınıza, eləcə də Azərbaycanın Ukraynanın Sülh Formuluna fəal şəkildə qoşulacağına ümid edirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, dost Azərbaycan xalqına isə sülh və rifah arzu edirəm.

**Hörmətlə,**

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Ötən illər ərzində ölkələrimiz arasında güclü əməkdaşlıq və tərəfdaşlıq münasibətləri qurulmuşdur. Bu münasibətlərin inkişaf edərək xalqlarımız arasında dostluq əlaqələrini daha da gücləndirəcəyinə ümidvaram.

Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına daimi rifah arzu edirəm.

**Hörmətlə,**

***Yun Sok YOL,***
***Koreya Respublikasının Prezidenti***

***

**Zati-aliləri cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Zati-alinizə və xalqınıza səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Uca Allahdan Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah arzu edirəm.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycan Respublikası ilə sıx əlaqələrini yüksək dəyərləndirir və İslam fəaliyyətinin birgə təşviqi məqsədini daşıyan bu qurumun dəstəklənməsində ölkənizin rolunu təqdir edir. İƏT üzv ölkələrin ümumi dəyərlərinin təbliği və bu ölkələr arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi işində səylərini bundan sonra da davam etdirəcəkdir.

Üzv ölkələrin xalqları arasında həmrəyliyin gücləndirilməsində və birgə İslam fəaliyyəti üçün yeni üfüqlərin açılmasında Zati-alinizin dəstəyinə ümidvaram.

Zati-aliləri cənab Prezident, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

***

**Zati-aliləri!**

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından və şəxsən öz adımdan 28 May - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük şərəf hissi duyuram.

ICESCO üzv ölkələrlə qəti birlik nümayiş etdirərək xalqınızın bu əlamətdar günündə sevincinizə şərik olduğunu xüsusi vurğulayır.

Biz Sizinlə və xalqınızla birlikdə bu əziz bayramı qeyd edirik.

Bu gün olduğu kimi, gələcək illərdə də ICESCO-nun davamlı dəstəyinə və əməkdaşlığına əmin ola bilərsiniz.

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

**Dərin hörmətlə,**

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizə təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına isə daha çox inkişaf, firavanlıq arzu edirəm.

Zati-alinizə xoş arzularımızı və hörmətimizi bildiririk.

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və qardaş Azərbaycan xalqını milli bayramınız - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Hazırda Azərbaycan malik olduğu böyük potensialdan bəhrələnərək müxtəlif istiqamətlər üzrə sürətlə inkişaf edir. Ölkənin bütün dünyada getdikcə artan nüfuzu bunun sübutudur.

Türkmənistanda Azərbaycan Respublikası ilə çoxtərəfli əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, xalqlarımızın dostluğu və qardaşlığı gələcəkdə də Türkmənistan-Azərbaycan məhsuldar münasibətlərinin təkmilləşdirilməsinə kömək edəcəkdir.

Bu fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri***

***

**Möhtərəm cənab Prezident!**

Sizi 28 May – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Artıq bir neçə ildir ki, Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir. Sizin rəhbərliyinizlə ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi, doğma yurdlarından didərgin düşmüş ailələr bu gün Qarabağa - Şuşaya, Laçına, Füzuliyə və digər şəhərlərə qayıdırlar.

Sizin rəhbərliyinizlə hazırda ölkəmizdə böyük bərpa işləri həyata keçirilir, Qarabağa onun əvəzsiz gözəlliyi və mənəvi həyatı qaytarılır.

Azərbaycan beynəlxalq aləmdə özünə layiq yer tutur və COP29 kimi nüfuzlu konfransın 2024-cü ildə Bakıda keçirilməsi barədə qərar bunu təsdiq edir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə böyük uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Respublikanın müstəqillik illərində dövlət quruculuğu, davamlı sosial-iqtisadi inkişaf və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində nailiyyətlərini, həmçinin onun yüksək beynəlxalq nüfuzunu bu gün qeyd etmək xüsusilə xoşdur.

İcazə verin, Sizə möhkəm cansağlığı və əmin-amanlıq, Azərbaycan Respublikasına isə tərəqqi arzulayım.

**Hörmətlə,**

***Bakıtcan SAQİNTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

***

**Hörmətli cənab Prezident!**

Sizi və bütün Azərbaycan xalqını milli bayramınız - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Biz 30 ildən artıqdır ki, Azərbaycanın dünya səviyyəli layihələrini təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirməklə ölkənin enerji sektorunun bir hissəsi olmaqdan böyük qürur duyuruq.

BP şirkəti Azərbaycanla səmərəli əməkdaşlığın davamlı olaraq genişləndirilməsinə böyük əhəmiyyət verir və bu tərəfdaşlığın daha da möhkəmlənməsinə ümid edir.

Zati-aliləri, Sizi bu əlamətdar bayram münasibətilə bir daha təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə daimi rifah və inkişaf arzulayıram.

**Hörmətlə,**

***Qəri COUNZ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**
**Hörmətli cənab Prezident!**

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyur, Azərbaycan Respublikasına və xalqınıza davamlı tərəqqi, yüksəliş və rifah arzu edirik.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz və xalqlarımız arasında ikitərəfli əlaqələrin sülh, təhlükəsizlik, sabitlik və firavanlıq zəminində gücləndirilməsi əzmində olduğumuzu bildiririk.

**Hörmətlə,**

***Humam HAMMUDİ,***
***İraqın Ali İslam Şurasının prezidenti***

## "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1147-VIQD nömrəli Qanununun tətbiqi və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1147-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 23.4-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 23.4-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 23.4-1-ci maddəsinə uyğun olaraq, ədliyyə orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan ədliyyə orqanları işçilərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi qaydasını və məbləğini iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1147-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 594 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "26.1-ci" sözlərindən əvvəl "23.4-1-ci maddəsində," sözləri əlavə edilsin;

3.2. 2.3-cü bənddən ", 37.7-ci maddəsinin ikinci cümləsində" sözləri çıxarılsın;

3.3. 2.3-1-ci bəndə "Qanunun" sözündən sonra "23.4-1-ci maddəsində və" sözləri əlavə edilsin;

3.4. 2.10-cu bənddə "maddəsinin birinci cümləsində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2024-cü il**

## "Bakı–Tbilisi–Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda–Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında 2007-ci il 7 fevral tarixli Saziş"ə dəyişiklik edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il aprelin 30-da Bakı və Tbilisi şəhərlərində imzalanmış "Bakı–Tbilisi–Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda–Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında 2007-ci il 7 fevral tarixli Saziş"ə dəyişiklik edilməsi barədə Protokol" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2024-cü il**

## "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) bağlı beynəlxalq qurum olan İslam Əməkdaşlıq Gənclər Forumu (İƏGF) arasında "Şuşa – İƏT-in Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramının həyata keçirilməsi haqqında Öhdəlik Protokolu"nun təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il martın 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) bağlı beynəlxalq qurum olan İslam Əməkdaşlıq Gənclər Forumu (İƏGF) arasında "Şuşa – İƏT-in Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramının həyata keçirilməsi haqqında Öhdəlik Protokolu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Öhdəlik Protokolu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Öhdəlik Protokolunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İslam Əməkdaşlıq Gənclər Forumuna bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2024-cü il**

# Baş nazir İtaliyanın Baş prokurorunu qəbul edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 25-də İtaliya Ali Kassasiya Məhkəməsinin Baş prokuroru Luici Salvatonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan–İtaliya dostluq və strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub.

İki ölkənin prokurorluq orqanları arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Səfər çərçivəsində imzalanmış Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə İtaliya Respublikasının Ali Kassasiya Məhkəməsi yanında Baş Prokurorluğu arasında əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Həmçinin Azərbaycan–İtaliya əlaqələrinin ticari-iqtisadi və bir çox digər istiqamətlərdə genişləndirilməsi perspektivləri müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iştirak edib.



# Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(əvvəli 1-ci səhifədə)*

1.9. Aslanlı Cəsarət Elçin oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 18 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.10. Ataşov Nurlan Araz oğlu, 2002-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 11 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.11. Avşar Məhəmməddavud Canmurad, 2000-ci ildə anadan olmuş, Əfqanıstan İslam Respublikasının vətəndaşı, Füzuli Rayon Məhkəməsinin 2023-cü il 11 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.12. Azayev Vüsal Telman oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 24 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.13. Bağırov Rəşad Fəxrəddin oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 15 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.14. Bağırov Ümid Allahverdi oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsinin 2021-ci il 8 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.15. Əbilov Anar Mikayıl oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2022-ci il 25 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.16. Ələkbərov Məmməd Abbas oğlu, 1956-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 4 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.17. Əliyev Fazil Məhərrəm oğlu, 1962-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 17 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.18. Əşrəfov Rasim Əli oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2022-ci il 3 mart tarixli hökmü ilə məhkum edilmişdir;

1.19. Fətəliyeva Gülüş Əlihüseyn qızı, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 2 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.20. Hacıyev İbrahimxəlil Ramiz oğlu, 1969-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2020-ci il 9 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.21. Hacıyev Şəmistan Pərviz oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Füzuli Hərbi Məhkəməsinin 2020-ci il 16 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.22. Həbibi Mutyullah Əbdülmətin, 1996-cı ildə anadan olmuş, Əfqanıstan İslam Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 13 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.23. Həsənov Elvin İlham oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 11 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.24. Həşimov Faiq İbrahim oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2022-ci il 10 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.25. Hikmətullah Əndərabi Seyfirəhman, 2000-ci ildə anadan olmuş, Əfqanıstan İslam Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2024-cü il 21 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.26. Hüseynov Malik Nazim oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Rayon Məhkəməsinin 2022-ci il 19 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.27. İmanov Rəşad Novruzəli oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 24 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.28. İsgəndərov Camal Musa oğlu, 1960-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Hacıqabul Rayon Məhkəməsinin 2021-ci il 30 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.29. İsmayılov Şəmşir Məhiyəddin oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Rayon Məhkəməsinin 2022-ci il 29 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.30. Qarayev Niyazi Arif oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2023-cü il 20 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.31. Qasımov Mahir Seyfulla oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Zaqatala Rayon Məhkəməsinin 2021-ci il 7 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.32. Qədimov Ceyhun Albaba oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 13 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.33. Quliyev Əbülfət Ədalət oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 23 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.34. Magomedov Magomedgusen İbragimoviç, 1975-ci ildə anadan olmuş, Rusiya Federasiyasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 21 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.35. Məmmədov Aqşin Nadir oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağdaş Rayon Məhkəməsinin 2022-ci il 10 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.36. Məmmədov Həsən Abdulla oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 8 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.37. Məmmədov Rahim Raqif oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2021-ci il 15 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.38. Məmmədrzalı Xudaverdi Adgözəl oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, İsmayıllı Rayon Məhkəməsinin 2022-ci il 14 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.39. Murtuzəliyev Tanrıverdi Cəbrayıl oğlu, 1959-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qəbələ Rayon Məhkəməsinin 2021-ci il 3 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.40. Mustafayev Ceyhun Mehman oğlu, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2023-cü il 17 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.41. Nadirxan Cürəbay Əbdülrauf, 2003-cü ildə anadan olmuş, Əfqanıstan İslam Respublikasının vətəndaşı, Füzuli Rayon Məhkəməsinin 2023-cü il 11 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.42. Namazov Çingiz Alim oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2022-ci il 12 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.43. Nəsirov Ramiz Əbdülhəsən oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Yevlax Rayon Məhkəməsinin 2022-ci il 8 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.44. Nəzərov Xalis Ərşad oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Yevlax Rayon Məhkəməsinin 2022-ci il 3 mart tarixli hökmü ilə məhkum edilmişdir;

1.45. Önalan Kadir, 1983-cü ildə anadan olmuş, Türkiyə Respublikasının vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2023-cü il 7 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.46. Poladov Babək Vəzir oğlu, 1969-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2021-ci il 21 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.47. Raja Mohammad Ayaz, 2003-cü ildə anadan olmuş, Əfqanıstan İslam Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 18 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.48. Rasulov Azər Ərzuman oğlu, 1962-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağdaş Rayon Məhkəməsinin 2022-ci il 28 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.49. Rəcəbli Elsevər Vüqar oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Rayon Məhkəməsinin 2022-ci il 21 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.50. Rəcəbli Urfan Müşviq oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağdaş Rayon Məhkəməsinin 2022-ci il 9 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.51. Ruslanov Teymur Elmar oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 18 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.52. Sağır Mehmet, 1989-cu ildə anadan olmuş, Türkiyə Respublikasının vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2023-cü il 8 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.53. Seydəliyev Kamil Camal oğlu, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2021-ci il 8 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.54. Səfərov Kamil Xəlil oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 5 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.55. Süleymanov Elxan Musa oğlu, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 27 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.56. Şahbazov Qədir Hüseynağa oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 19 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.57. Şükürov Məlik Məhəmməd oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 31 mart tarixli hökmü ilə məhkum edilmişdir;

1.58. Şükürova Çiçək Famil qızı, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 16 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.59. Yolçuyev Orxan Adil oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qazax Rayon Məhkəməsinin 2020-ci il 27 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.60. Yusifli Yusif Məmmədismayıl oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qəbələ Rayon Məhkəməsinin 2022-ci il 22 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.61. Yusifov Azər Səməndər oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 9 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.62. Yusubov Amil Kamil oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, İmişli Rayon Məhkəməsinin 2022-ci il 31 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.63. Zamanov Rahib Rəşid oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2020-ci il 4 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

2. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılsın:

2.1. Abbasov Qabil Bəhram oğlu, 1960-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 28 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.2. Abbasov Rasim Məhəmməd oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Rayon Məhkəməsinin 2022-ci il 2 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

2.3. Abdullayev İbrahim Cəmil oğlu, 2001-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 6 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

2.4. Ağayev Rafiq Əliheydər oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 25 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.5. Alıyev Sabir Məzahir oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tovuz Rayon Məhkəməsinin 2022-ci il 21 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

2.6. Ansarov İdayət Ramiz oğlu, 2001-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 21 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.7. Bayramov Babalar Əziz oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 3 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.8. Bəşirov Tural Məharət oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 21 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

2.9. Cabbarov Vasif Asim oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

2.10. Dadaşov Dadaş İlqar oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2021-ci il 1 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.11. Eynalov Samir Həsrət oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 23 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.12. Əhmədov Bəxtiyar Əlifağa oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 4 mart tarixli hökmü ilə məhkum edilmişdir;

2.13. Əhmədov Əli Əhməd oğlu, 1962-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2022-ci il 24 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

2.14. Əhmədov Feruz Novruz oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 27 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

2.15. Əkbərov Saleh Valeh oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 9 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

2.16. Əliyev Elsevər Bağman oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 18 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

2.17. Əliyev Elvin Ələddin oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 11 mart tarixli hökmü ilə məhkum edilmişdir;

2.18. Əliyev Füzuli İsmayıl oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2021-ci il 16 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.19. Əliyev Mahir Zair oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2021-ci il 10 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.20. Əliyev Rafiq Muğan oğlu, 1974-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 4 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.21. Əlövsətli Seymur Yusif oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 23 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

2.22. Əsdanov Ramil Ənvər oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2021-ci il 8 may tarixli hökmü ilə məhkum edilmişdir;

2.23. Həşimli Razil Rza oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 10 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

2.24. Həzrətov Mirzaman Əziz oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 4 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.25. Hüseyinov Vüqar Güloğlan oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 9 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.26. Hüseynli Tural Şakir oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 14 may tarixli hökmü ilə məhkum edilmişdir;

2.27. İsmayılov Kamil Fazil oğlu, 2003-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 19 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.28. İsmayılov Namiq Namiq oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 31 may tarixli hökmü ilə məhkum edilmişdir;

2.29. Kərimov İlqar Ramiz oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 23 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

2.30. Qasımov Murov Zahid oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 9 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

2.31. Qasımov Ramiz Elşən oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 12 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.32. Qədirov Kamil Famil oğlu, 1952-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 16 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

2.33. Quliyev Hikmət Ələsgər oğlu, 1955-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 28 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

2.34. Manafov Ramil Arif oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 8 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

2.35. Məmmədov Elmir Ağakişi oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 14 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

2.36. Məmmədov Müseyib Yusif oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 25 may tarixli hökmü ilə məhkum edilmişdir;

2.37. Məmmədov Seymur İsbəndiyar oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 28 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

2.38. Mustafayev Ələkbər Nizami oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 1 mart tarixli hökmü ilə məhkum edilmişdir;

2.39. Mürsəlov İbrahim Mirzə Rəsul oğlu, 1955-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 12 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.40. Müseyibov Anar İsa oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 1 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

2.41. Nəbiyev Xəyal Müşgül oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 1 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

2.42. Orucov Bayram Əlövsət oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 19 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

2.43. Rəhimov Ramid Əzizağa oğlu, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 12 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.44. Rizayev Asif İsgəndəroviç, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2022-ci il 21 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.45. Rüstəmov Mail Musa oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 17 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

2.46. Rzayev Urfan Taptıq oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

2.47. Sadıqov Tural Əkbər oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 4 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

2.48. Salmanov Cəbrayıl İldırım oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2022-ci il 4 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

2.49. Səmədov Sahil Məhəmmədiyə oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 2 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.50. Sulxayev Murad Şamil oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 13 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

2.51. Yusifov Seymur Yusif oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2021-ci il 20 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

2.52. Zeynallı Əliyəddin Həmzə oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qəbələ Rayon Məhkəməsinin 2022-ci il 28 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

3. Mingəçevir Şəhər Məhkəməsinin 2023-cü il 8 may tarixli hökmü ilə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Məmmədova İlahə Fəyyaz qızı cəzadan azad edilsin.

4. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

4.1. Ağayev Elxan Novruzbəy oğlu, 1970-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Quba Rayon Məhkəməsinin 2022-ci il 19 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

4.2. Baxşəliyev Yunis Qənbər oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2022-ci il 21 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

4.3. Cəfərov Xaliq Tahir oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2022-ci il 21 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

4.4. Əliyev Rafiq Əjdər oğlu, 1963-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, İmişli Rayon Məhkəməsinin 2022-ci il 7 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

4.5. Əliyev Vüqar Şirin oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, İmişli Rayon Məhkəməsinin 2022-ci il 29 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

4.6. Əliyev Zaur Xanəli oğlu, 1963-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2022-ci il 1 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

4.7. Hacıyev Aslan Asim oğlu, 1952-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Mingəçevir Şəhər Məhkəməsinin 2023-cü il 25 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

4.8. Hüseynov Elvin Mehdi oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Apellyasiya Məhkəməsinin 2022-ci il 11 oktyabr tarixli qərarı ilə məhkum edilmişdir;

4.9. Hüseynov Məhəmməd Azər oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Yevlax Rayon Məhkəməsinin 2022-ci il 7 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

4.10. Xələfov Kənan Şamil oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2023-cü il 11 may tarixli hökmü ilə məhkum edilmişdir;

4.11. İsmayılov Davud Haqverdi oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2023-cü il 15 may tarixli hökmü ilə məhkum edilmişdir;

4.12. Qasımzadə Nəsiman Bəxtiyar oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2023-cü il 15 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

4.13. Qəzənfərli Qəzənfər Veysəl oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Yevlax Rayon Məhkəməsinin 2021-ci il 10 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

4.14. Quliyev Rövşən Nadir oğlu, 1978-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Yevlax Rayon Məhkəməsinin 2021-ci il 10 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

4.15. Mahmudova Nuranə Nurəddin qızı, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2023-cü il 11 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

4.16. Məmmədova Pəri Nurəddin qızı, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2023-cü il 11 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

4.17. Mirabbaslı Arzu Hikmət oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, İsmayıllı Rayon Məhkəməsinin 2023-cü il 2 may tarixli hökmü ilə məhkum edilmişdir;

4.18. Mursalıyev Ceyhun İsrayıl oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qəbələ Rayon Məhkəməsinin 2022-ci il 13 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

4.19. Musayev Seyidməhərrəm Seyidəli oğlu, 1960-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2023-cü il 31 may tarixli hökmü ilə məhkum edilmişdir;

4.20. Nəhmətov İntiqam Kərəm oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2022-ci il 19 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

4.21. Nəsibova Günay Mayak qızı, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Yevlax Rayon Məhkəməsinin 2022-ci il 17 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

4.22. Paşayev Paşa Məmməd oğlu, 1944-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Goranboy Rayon Məhkəməsinin 2021-ci il 17 mart tarixli hökmü ilə məhkum edilmişdir;

4.23. Salmanov Təbriz Hüseynağa oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 4 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

4.24. Səfərov Rauf Şahin oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2022-ci il 2 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

4.25. Süleymanov Ceyhun Aydın oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qəbələ Rayon Məhkəməsinin 2022-ci il 13 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

4.26. Şəfiyev Sərxan Ramin oğlu, 2002-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2022-ci il 16 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

4.27. Şıxıyeva Fərqanə İslam qızı, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2022-ci il 11 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

4.28. Zülfüqarov Xaqani Zülfüqar oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şamaxı Rayon Məhkəməsinin 2022-ci il 2 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

5. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş aşağıdakı şəxslərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılsın:

5.1. Ağayev Əskər Cəmaləddin oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şirvan Apellyasiya Məhkəməsinin 2022-ci il 5 aprel tarixli qərarı ilə məhkum edilmişdir;

5.2. Həsənov Qabil Əlizadə oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2023-cü il 21 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

5.3. Nuriyev Şikar Ağabala oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Biləsuvar Rayon Məhkəməsinin 2022-ci il 2 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

6. İslah işləri cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

6.1. Babayeva İlhamə Zakir qızı, 1970-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2022-ci il 18 may tarixli hökmü ilə məhkum edilmişdir;

6.2. Kərimova Səadət Əvəz qızı, 1974-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2022-ci il 18 may tarixli hökmü ilə məhkum edilmişdir.

7. Cərimə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad edilsinlər:

7.1. Cəfərov Vüqar Nəhməd oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2022-ci il 20 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

7.2. Mustafayev Fərhad Adil oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Apellyasiya Məhkəməsinin 2022-ci il 30 noyabr tarixli qərarı ilə məhkum edilmişdir;

7.3. Rzayev Vahid Şamil oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Hərbi Məhkəməsinin 2022-ci il 10 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

7.4. Sarıyev İmaməli Əliaslan oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Şəhər Məhkəməsinin 2023-cü il 19 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

8. Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2022-ci il 9 fevral tarixli hökmü ilə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasını çəkmiş, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı Fətullayev Orxan Əhəd oğlunun məhkumluğu götürülsün.

9. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 25 may 2024-cü il**

# İlham Əliyev: postmüharibə dövrünün memarı

VI MƏQALƏ

Siyasət ictimai nəbzin döyüntüsüdür.
Uendell Fillips



## Postmüharibə dövrünün arxitektonikası

Bundan öncəki məqalənin yekun tezisi – Prezident İlham Əliyevin yeni tarixi mərhələnin siyasi və geosiyasi konturlarını və böyük güclərin regional maraqlarının milli maraq fonunda yeni nisbətinin müəyyənləşdirməsinin faktiki olaraq, postmüharibə dövrünün "geosiyasi konstruksiyası"nın nüvəsini təşkil etməsi ilə bağlı idi. Milli ideyanın dövlət başçısı tərəfindən məzmununun bəyan edilməsi ilə postmüharibə dövrünün regional miqyasda tam mənzərəsi aydın olacaqdır.

İndi biz yeni tarixi mərhələnin siyasi və geosiyasi konturlarının və böyük güclərin regional maraqlarının milli maraq fonunda yeni nisbətinin müəyyənləşdirilməsinin qarşılıqlı əlaqəsində Cənubi Qafqazın geosiyasi arxitekturasının başlıca özəlliyinin fəlsəfi və siyasi-nəzəri tərəflərinə nəzər salaq.

Vurğulanan iki mühüm geosiyasi faktorun sıx əlaqəsini ifadə edən ümumi tendensiyalar artıq mövcuddur. Onlar Şərq–Qərb və Şimal–Cənub marşrutları üzrə enerji və nəqliyyat-logistika layihələrinin yeni səviyyədə geosiyasi dinamikanı nəzərə alaraq qarşılıqlı əlaqələrinin yaratdığı sinergetik effektlə bağlıdır. Həmin sinergizm Cənubi Qafqazın sülh, əməkdaşlıq və təhlükəsizliyin vəhdəti fonunda postmüharibə dövrünün arxitektonikasını müəyyən edir. Burada "arxitektonika" termini postmüharibə dövrünün struktur-funksional qanunauyğunluqlarının fəlsəfi ifadəsidir. Bundan sonrakı təhlilimizə bu tezisin əsasında davam edəcəyik.

Yəni: birincisi, Azərbaycan Prezidenti postmüharibə dövrünün arxitektonikasının başlıca məqamlarını artıq müəyyən etmişdir. İkincisi, yeni tarixi mərhələdə milli ideyanın məzmununu Prezident bəyan edəndən sonra, ümumi mənzərə tamamilə aydın olacaqdır. Üçüncüsü, hazırkı mərhələdə vurğulanan iki yeni faktorun qarşılıqlı əlaqəsi regional və regionüstü miqyaslarda özünün konkret təsdiqini tapmaqdadır. Dördüncü, həmin təsdiq konkret olaraq Şərq–Qərb və Şimal–Cənub marşrutları üzrə baş verən yeni proqram xarakterli layihələrin məzmununda özünü göstərməkdədir. Sonuncu tezisin təsdiqi üzərində dayanaq.

## Şərq–Qərb nəqliyyat və enerji dəhlizi

Azərbaycan Prezidenti gərgin rəqabət şəraitində Şərq–Qərb nəqliyyat və enerji marşrutunun Cənubi Qafqaz, Mərkəzi Asiya, Uzaq Şərq (əsasən Çin) və Avropa miqyasında geosiyasi rolunun saxlanmasına nail olmuşdur. Bunun üçün İlham Əliyev həm müstəqil dövlətin lideri, həm Türk Dövlətlər Təşkilatının aparıcı siyasətçilərindən biri, həm də Qoşulmama Hərəkatının sədri kimi siyasi-diplomatik fəaliyyətini üzvi surətdə əlaqələndirə bilmişdir. Bu əlaqələndirmə fərdi müstəqil liderliklə təşkilat miqyasında təşəbbüskar və fəal siyasətçi funksiyalarının vəhdəti formasında reallaşdırılmışdır. Nəticədə İlham Əliyev Azərbaycanın fərdi təşəbbüs planlarını Orta Dəhliz çərçivəsində TDT və Qoşulmama Hərəkatı miqyaslarında qarşılıqlı fayda verən proqram statusuna transformasiya etmiş və onu çoxlu sayda ölkənin milli təhlükəsizliyi ilə əlaqələndirmişdir. Nəticədə İlham Əliyevin təşəbbüsləri enerji təhlükəsizliyi məsələsini regional və regionlararası səviyyədə proses iştirakçılarının hər biri üçün faydalı olan müstəviyə cəlb etmişdir. Siyasi olaraq maraqlı olan cəhətlərdən biri ondan ibarətdir ki, İlham Əliyev diplomatik məharətlə çox ziddiyyətli Avropa–Şərq münasibətlərini ziddiyyətsiz bir məcraya yönəldə bilmişdir (nəqliyyat-logistika və enerji aspektləri nəzərdə tutulur).

Bundan başqa, Rusiya məsələsini çox konstruktiv surətdə İlham Əliyev vurğulanan planlara daxil edə bilmişdir. Nəticədə Moskva həm maneedici davranışlardan çəkinmiş, həm də özünün daha fəal iştirakı üçün əlavə imkanlar əldə etmişdir.

Bütün bunların regionlararası miqyasda geosiyasi nəticəsini türkiyəli nazir Alparslan Bayraktar bir neçə tezisdə lakonik və dəqiq ifadə etmişdir. Türkiyənin energetika naziri "Habertürk"ə verdiyi müsahibədə vurğulamışdır ki, "Türkiyə ilk dəfədir ki, Macarıstan, Bolqarıstan, Rumıniya, Serbiya kimi Avropa ölkələrinə qaz ixrac edir. Ümid edirik ki, Türkiyə qaza olan qiyməti müəyyən edən ölkə olacaqdır. Biz Rusiya tərəfi ilə birgə səylərimizə davam edirik..." A.Bayraqdar onu da vurğulamışdır ki, İstanbul dünyanın maliyyə mərkəzlərindən birinə çevrilə bilər.

Türkiyəli nazirin fikirləri arxasında böyük bir həqiqət dayanır: bütün bu yeniliklərin kökündə Azərbaycan Prezidenti İlham Əliyevin məharətli liderlik fəaliyyəti dayanır! Bunu Türkiyə rəhbərliyi daim böyük sevgi ilə vurğulayır. Məsələ ondan ibarətdir ki, Türkiyənin böyük qaz habı rolunu oynamasında İlham Əliyevin Çindən başlayan Orta Dəhliz və Mərkəzi Asiya dövlətlərinin enerji resurslarını əhatə etməsi ilə yanaşı, Rusiyanın da bu prosesə cəlb olunmasını təmin edən möhtəşəm addımları həlledici rol oynamaqdadır. İlham Əliyev həmin aspektləri Cənubi Qafqazda postmüharibə dövrünün geosiyasi arxitektonikasının yaradılması kontekstinə üzvi surətdə daxil edən liderdir!

Bununla Azərbaycan Prezidenti postmüharibə dövründə regional sülh, əməkdaşlıq və təhlükəsizlik şəbəkəsinin qurulmasını dörd region – Uzaq Şərq, Mərkəzi Asiya, Qafqaz və Avropa üçün eyni dərəcədə aktual olan faktora çevirmişdir və yeni geosiyasi strukturlaşmanı regionlararası əlaqələrin təminatçısı səviyyəsinə yüksəltmişdir! Dövlətçiliyimizdə tarixi naliyyətdir! Çünki Azərbaycan faktiki olaraq real surətdə postmüharibə dövrünün memarı funksiyasını bacarıqla yerinə yetirir!

## Şimal–Cənub: Azərbaycan ssenarisi üzrə diriliş

Bu nəqliyyat-logistika və enerji marşrutu, sözün əsl mənasında, başı bəlalıdır. İllərdir ki, ondan danışılır, lakin real addımlar gözə dəymirdi. İndi Azərbaycan Prezidenti bu marşruta yeni nəfəs verir. Qarabağ münaqişəsi həll olunandan və Azərbaycan ərazi bütövlüyü ilə suverenliyini tam təmin edəndən sonra İlham Əliyev konkret təklifləri və addımları ilə Rusiya üçün ciddi əhəmiyyəti olan həmin istiqaməti canlandırır.

Bu prosesdə İranın iştirakı ayrıca əhəmiyyət daşıyır. Hindistan (Mumbay portu vasitəsi ilə) bu marşrutdan faydalana bilər. Onu deyək ki, Şimal–Cənub marşrutu Xəzər regionunda üç budağa ayrılır – Qərb (Azərbaycan vasitəsi ilə), Şərq (Qazaxstan, Özbəkistan və Türkmənistan istiqaməti) və Transxəzər. Bu üç istiqamət sistem halında çox geniş məkan üçün Şimal–Cənub marşrutunu cəlbedici edir. Rusiya, Qafqaz, İran və Hindistanın bura daxil olduğu çoxdan məlumdur. Hazırda Azərbaycanın fəallığı ilə Yaxın Şərq ölkələrinin də həmin marşruta maraq göstərdiyi müşahidə edilir. Konkret fakt kimi, Birləşmiş Ərəb Əmirliklərini, Bəhreyni, Omanı göstərə bilərik. Bu ölkələrin rəhbərliyi ilə son zamanlar Rusiya rəhbərliyi arasında faydalı danışıqlar olmuşdur. Həmin istiqamətdə prosesin genişlənəcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, vurğulanan istiqamətin yeni mərhələyə qalxması Prezident İlham Əliyevin ciddi fəaliyyəti ilə sıx bağlıdır. Belə ki, Azərbaycan Prezidenti Yaxın Şərq ölkələri ilə (məsələn, İraqla) enerji və nəqliyyat-logistika sferasında əməkdaşlıqla bağlı müzakirələr aparmışdır. Eyni zamanda, Rusiya lideri ilə İlham Əliyevin bir neçə dəfə məsələni müzakirə etdiyi faktdır. Onu da deyək ki, bu marşrut üzrə də Türkiyənin böyük əməkdaşlıq imkanları əldə etdiyi aydındır.

Beləliklə, çox geniş bir geosiyasi məkanda Şimal–Cənub əməkdaşlıq marşrutu üzrə Azərbaycan Prezidenti İlham Əliyev Cənubi Qafqaza yeni geosiyasi status qazandırmaqdadır. Bu status postmüharibə dövründə sülh, əməkdaşlıq və təhlükəsizliyin multiparametrli mahiyyətli olması formasında həyata keçirilir. Həmin kontekstdə regionda postmüharibə dövrünün yekun mənzərəsini formula edə bilərik.

## Yekun mənzərə

Cənubi Qafqazın postmüharibə dövrünün yekun geosiyasi mənzərəsinin arxitektonikası mahiyyətcə multifaktoral, multimodal və multilateral xarakter daşıyır. O, multiregional arxitekturanın tərkib hissəsi kimi formalaşır. Burada İlham Əliyevin liderlik nümunəsinin fəlsəfi aspektdə bır sıra özəllikləri aydın olur.

Hər şeydən öncə, Azərbaycan Prezidenti lider kimi şəxsi qətiyyəti və ümumi mənzərəni yüksək strateji zəka ilə görə bilməsi ilə fərqlənir. Bu miqyasda geniş baxış İlham Əliyevin nəzəriyyə ilə praktikanı böyük məharətlə eyni məntiqi müstəvidə qarşılıqlı əlaqədə uyğunlaşdıra bilmək qabiliyyəti ilə birləşir.

Bir dövrün geniş geosiyasi məkanda memarı olmaq böyük siyasi liderlik keyfiyyətindən xəbər verir. Xüsusilə, söhbət postmüharibə dövründə sülh, əməkdaşlıq və təhlükəsizliyin vəhdətində baş verən proseslərdən gedirsə, ikiqat mürəkkəb situasiyadan bəhs edilir. Çünki indi fəlsəfi və siyasi araşdırmalarda əsas diqqət böhran və münaqişə vəziyyətində liderlik nümunəsinə yönəldilməkdədir. Bunun fonunda münaqişədən sonrakı mərhələdə regionları inkişaf etdirmək nümunəsi daha aktual görünür. Çünki sonucda bəşəriyyətin mövcudluğu əsas mövzudur.

Postmüharibə dövrünün memarı kimi İlham Əliyev liderliyinin çox özəl cəhətlərindən biri regional geosiyasi arxitekturanı milli ideya faktoru ilə uyğunlaşdırmaq keyfiyyəti ilə bağlıdır. Bu, faktiki olaraq, Azərbaycan Respublikasını müasir tarixi mərhələdə regional miqyasda özəl geosiyasi status səviyyəsinə qovuşdurmaq deməkdir. Yəni real zamanda və realpolitika çərçivəsində regional geosiyasi arxitektonika Azərbaycanın milli ideyasındakı məzmun və strateji məqsəd "çətiri" altında formalaşır ki, bu da geniş prizmada regionun taleyinin Azərbaycanın dövlətçilik kursu ilə sıx bağlılığı deməkdir. Eyni zamanda, yeni tarixi mərhələdə Azərbaycanın milli ideyasında regional miqyasda uğur faktorunun ciddi surətdə nəzərə alınması zərurətinin meydana gəlməsi deməkdir. Son dərəcə əhəmiyyətli məqamdır!

Nəhayət, İlham Əliyevin postmüharibə dövrünün arxitektonikasını bütövlükdə TDT kontekstində "inşa" etdiyi tezisini irəli sürmək olar. Bu, müstəqil bir dövlətin strateji seçiminin ana punktudur. Azərbaycan XXI əsrin geosiyasi ruhuna uyğun olaraq, dövlətlər qrupunun ən fəal üzvü kimi regional və qlobal miqyasda inkişafında qətiyyətlidir!

Bununla Azərbaycan Prezidenti postmüharibə dövründə şəxsiyyət kimi liderliyinin təkamül dinamikasını, dövlət başçısı – lider kimi regional və şəxsiyyət – dövlət başçısı – lider kimi qlobal inkişafın dinamikaları ilə ziddiyyətsiz uyğunlaşdıra bilən böyük lider olaraq özünü təsdiq etməkdədir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Lider sözünün siqləti

## Qazaxın 4 kəndinin 1 güllə atılmadan qaytarılması dövlət başçısının dediyi sözü əmələ çevirməsinin növbəti təsdiqi oldu



**Yaxın Şərqin və postsovet məkanının siyasi coğrafiyasında son iki yüz ildə görünməmiş hadisələrin reallığa çevrilməsinə şahidlik edirik. Rusiya sülhməramlı kontingentinin Qarabağdan vaxtından əvvəl çıxarılması, 4 qeyri-anklav kəndin bir güllə atılmadan Azərbaycana qaytarılması çağdaş tariximizin şanlı səhifəsi, bu tarixi yazan İlham Əliyevin bölgədə və dünyada artan nüfuzunun göstəricisidir.**

Dövlət sərhədinin delimitasiyası üzrə hökumətlərarası komissiyaların 8-ci görüşünün yekunlarına dair açıqlaması, mayın 19-da imzalanmış protokola əsasən, işğaldakı 4 qeyri-anklav kəndin bir güllə atılmadan Azərbaycana qaytarılması faktı sülhə aparan yolun möhtəşəm başlanğıcı oldu. İndiyədək kimin çözüldüyü ilə bağlı suallar mövcuddursa, cavab kimi deyə bilərik – çözümün çox böyük hissəsi – desək yanılmarıq. Bəli, son iki yüz il ərzində Azərbaycandan qoparılan torpaqlar indi, necə deyərlər, qarış-qarış öz sahibinə qayıdır.

Qeyri-anklav kəndlərin qaytarılması məsələsini Prezident İlham Əliyev 2020-ci ilin noyabrında üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra qaldırmışdı. Ötən müddət ərzində mövzu daim gündəmdə saxlanıldı, bu istiqamətdə məqsədyönlü, ardıcıl iş aparıldı. Cənab Prezident regional və beynəlxalq format-lı tədbirlərdəki çıxışlarında xəbərdarlıq edirdi ki, əgər Ermənistan davamlı sülh istəyirsə, öz gələcəyini düşünürsə, kənar dövlətlərin köləsi kimi yaşamaq istəmirsə, işğal etdiyi ərazilərdən qeyd–şərtsiz çıxmalıdır. Çünki, Azərbaycan rəhbərliyi torpağın bir qarışının belə işğal altında qalmasına imkan verməyəcəkdi. Sonda biz deyən oldu. Qərbdəki ermənipərəst dairələrin məkrli niyyətlərinə rəğmən, İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasəti nəticəsində ədalət zəfər çaldı.

Delimitasiya prosesinin ilkin mərhələsində tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqının süqutu dövründə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq xəttin Bağanıs (ER) - Bağanis Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrımlı (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasından keçməsini razılaşdırdılar. Beləliklə, Vətən müharibəsindəki möhtəşəm Zəfərdən, 2023-cü ilin sentyabrında suverenliyin tam bərpasından, rusiyalı sülhməramlıların bölgədən çıxarılmasından sonra Azərbaycan lideri bir güllə atılmadan 4 qeyri-anklav kəndin işğaldan azad edilməsinə nail oldu. Bu ikitərəfli razılaşmanı delimitasiya istiqamətində atılan ilk addım saymaq olar. Delitimasiyanın məhz Tavuş–Qazax sərhədindən başlanmasına rəsmi Bakının təkidi ilə start verildi.

Beləliklə, Azərbaycanın Qazax rayonu və Ermənistanın Tavuş bölgəsi ərazisində sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində bu il aprelin 19-da başlanan proses uğurla sona çatdı. Artıq həmin kəndlərin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü və bu barədə Ali Baş Komandana məruzə edildi.

Şahidi və iştirakçısı olduğumuz hadisənin çox böyük tarixi əhəmiyyəti var. 1991-ci ildə SSRİ dağılandan sonra ilk dəfə Azərbaycan və Ermənistan dövlət sərhədinin delimitasiyası üzrə razılığa gəldilər. Artıq iki ölkə arasında sərhədin 12,7 km uzunluğunda olan hissəsi şərti deyil, real sərhəd xəttidir. Qazaxın qeyri-anklav 4 kəndinin bir güllə atılmadan qaytarılması isə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması yolunda çox önəmli addımdır.

Delimitasiya üzrə hökumətlərarası komissiyaların əldə etdikləri razılaşmanın icrası təkcə iki ölkənin deyil, ümumilikdə, Cənubi Qafqazın tarixində yeni səhifə açır, etimad mühiti yaradır. Bu, eyni zamanda, rəsmi Bakının irəli sürdüyü, sülh danışıqlarının üçüncü tərəf olmadan, birbaşa aparmaq təklifinin effektivliyini ortaya qoydu.

Cari ilin yanvarında yerli telekanallara müsahibəsində cənab Prezident Qazaxın anklav və qeyri-anklav 8 kəndi ilə bağlı konkret mövqeyini ortaya qoymuşdu: "O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır". Göründüyü kimi, İlham Əliyevin dörd ay əvvəl dediyi söz reallığa çevrildi. Yaxın vaxtlarda Azərbaycanla Ermənistanın delimitasiya üzrə hökumət komissiyalarının işini şərti sərhədin digər istiqamətlərində davam etdirəcəyi və Azərbaycanın hələ də işğal altında qalmış digər anklavlarla bağlı ədalətli həll yolunun tapılacağı şübhəsizdir.

İrəvanın sərgilədiyi hazırkı konstruktivliyi Bakı ilə sülh müqaviləsinin tezliklə imzalanmasına töhfə verəcəyinə ümidləri xeyli artırır. Məhz bu kontekstdən yanaşanda Ermənistan hakimiyyətinin üzərinə götürdüyü öhdəliyi yerinə yetirəcəyi– Zəngəzur dəhlizinin açılması, eyni zamanda, Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı müddəaları konstitusiyasından çıxarması qarşıdakı qısa zamanda gerçəkləşəcəyi görünən reallıqdır.

Prezident İlham Əliyevin şəffaf və ədalətli xarici siyasəti Cənubi Qafqazın sülh, sabitlik və əməkdaşlıq adasına çevrilməsini təmin edən seqmentdir. Onun tərəfindən irəli sürülən konkret təklif və tələblər tarixi baxımdan siyasi əhəmiyyətə malik olması ilə yanaşı, bölgənin yeni konfiqurasiyasını müəyyənləşdirməyə xidmət edir.

Bütün deyilənlərin fonunda bir həqiqət öz təsdiqini tapır ki, güclü və müdrik lideri olan xalq qarşısında duran bütün məqsədlərə nail ola bilir. Bu, həm də dediyi sözün arxasında durmağı bacaran, onu əmələ, milləti və dövləti üçün zəfərə çevirən liderin uğur salnaməsinin növbəti şanlı səhifəsidir.

*Arzu ABDULLAYEV,*
*Naxçıvan Dövlət Universitetinin prorektoru,*
*tarix üzrə fəlsəfə doktoru*

# Azərbaycanla sərhəd xətti – Ermənistandakı ajiotaj motivləri




(əvvəli 1-ci səhifədə)

Ermənistanda isə durum tam fərqlidir. Haqqında söz açdığımız ajiotaj da inam və etimad mühitinin olmamasından qaynaqlanır. Elə “Vətən naminə Tavuş” adı ilə başlanmış hərəkatın səbəbi də məhz budur. Əlbəttə, başqa siyasi səbəblər də öz yerində. Ancaq indi bilavasitə bu barədə fikir bildirməyəcək, daha çox Ermənistanın ictimai rəyində demarkasiya və delimitasiya prosesinə zidd təmayüllərdəki ayrı-ayrı konkret elementlərdən söz açacağıq.

Başlayaq, Ermənistan milli təhlükəsizlik xidmətinin ehtiyatda olan zabitlər ittifaqı adlanan qurumun yaydığı bəyanatdan. Sənəddə bildirilir ki, Tavuşda aparılan delimitasiya və demarkasiya prosesi qondarmadır. Nə Sovet, nə də postsovet dövründə Kirants kəndinin Azərbaycanla ümumi sərhədi olub. Təşkilat SSRİ hökumətinin 1988-ci ildə Ermənistan və Azərbaycan hökumətlərinin protokolu ilə təsdiq edildiyi bildirilən və hər iki respublikanın rəhbərlərinə verildiyi deyilən topoqrafik xəritəyə əsaslanmanı vacib sayır. Yeri gəlmişkən, həmin xəritəyə istinadın zəruriliyindən danışan başqa siyasilər də var. Belə təəssürat yaranır ki, mövcud istiqamətdə fikir bildirənlər eyni nöqtədən təlimatlandırılırlar.

Ermənistan milli təhlükəsizlik xidmətinin ehtiyatda olan zabitlər ittifaqı bildirib ki, 1988-ci ildə SSRİ Nazirlər Sovetinin üç qərarı əsasında sərhədlərin müəyyənləşdirilməsi başa çatmışdı və bu, o vaxt qüvvədə olan qanunvericiliyə əsasən parlamentlər (Ali Sovetlər – red.) tərəfindən ratifikasiya olunmurdu. Buna görə də həmin sənədə əsaslanmayaraq aparılan işlər, guya, Azərbaycanın delimitasiya və demarkasiya adı ilə Ermənistan ərazisini işğala məruz qoymasıdır: “Təkrar edirik: Kirants Ermənistanın tərkibində Azərbaycanla həmsərhəd kənd olub. Voskepar da eyni ilə. Qondarma demarkasiya zamanı Ermənistanın torpaqları qanunsuz olaraq Azərbaycana bağışlanıb”.

Xüsusi xidmət üzrə sabiq erməni zabitləri onu da bildirirlər ki, hakimiyyət təmsilçilərinin baş qərargahın 1976-cı il xəritəsinə istinada dair fikirləri xalqı aldatmaqdır. Çünki həmin xəritələri respublikaların inzibati-ərazi bölgüsü, deməli, delimitasiya və demarkasiya üçün əsas deyil: “Bu xəritədən istifadə təslimçiliyi güzəşt kimi sırımağın maskalanmış üsuludur”, – deyən zabitlər tələb ediblər ki, 1976-cı ilin topoqrafik xəritəsi və onun istinad etdiyi hüquqi sənədlər tələb olunmalıdır. Ən əsası isə delimitasiya və demarkasiya işləri 1929 və 1988-ci illərin xəritələri ilə aparılmalıdır. Yeri gəlmişkən, deyək ki, 1929-cu ildə Azərbaycandan alınıb Ermənistan SSR-ə verilmiş ərazilərdə hazırkı Meğri rayonu yaradılıb. O rayon ki, onun ərazisindəki 40 kilometrlik yol ölkəmizi qədim diyarımız Naxçıvandan ayırır.

SSRİ Silahlı Qüvvələri Baş Qərargahının 1976-cı il xəritəsində Ermənistan SSR-in süquta uğradığı dövrdə qüvvədə olan hüquqi sərhədi əksini tapmır. Bunu konstitusiya məsələləri üzrə mütəxəssis, politoloq Vardan Poqosyan deyib. Poqosyan bildirib ki, 1988-ci ildə Ermənistan və Azərbaycan arasında sərhədin dəqiqləşdirilməsi və bərpası haqqında müvafiq protokol imzalananda, bu sənəd əvvəlki razılaşmaların icrasını əks etdirmişdi və dərhal qüvvəyə minmişdi. Ekspertin sözlərinə görə, erməni hakimiyyətinin protokolun sabiq SSRİ Ali Sovetinin təsdiqinə təqdim edilmədiyi və onun əsasında heç bir xəritə tərtib olunmadığı üçün etibarsız sayılması ilə əlaqədar arqumentləri yersizdir: “Onlar sadəcə yalan danışırlar. Əgər çətinlik çəkib heç olmasa, protokolun mətnini açsalar, orada işin bitdiyinə əmin olacaqlar. Bu protokol mahiyyətcə, bir növ, təhvil-qəbul aktıdır. Çünki 1984-cü ilin dekabrından 1988-ci ilin dekabrınadək fəaliyyət göstərən Ermənistan–Azərbaycan paritet komissiyası yaradılmışdı. Xəritə bütün sərhədin delimitasiyası prosesini başa çatdırmışdı. Həmçinin, razılaşdırılmış sərhədin uzunluğu boyunca sərhəd nişanları quraşdırılmışdı”.

V.Poqosyan bildirib ki, Azərbaycanla Ermənistan arasındakı sərhədin uzunluğu 975 kilometrdir. Onun sözlərinə görə, 1988-ci ildə həyata keçirilmiş fəaliyyət çərçivəsində 1969-cu il sərhədi bərpa edilməyib, sadəcə olaraq, bir sıra dəqiqləşdirmələr aparılıb, Ermənistanın və Azərbaycanın bəzi əraziləri dəyişdirilib. “Ərazilərin mübadiləsi Ermənistanın və Azərbaycanın hökumətlərinin qərarları əsasında aparılıb və ayrıca müfəssəl kartoqrafik diaqramlarda qeyd edilib”, – deyən V.Poqosyan vurğulayıb ki, 1988-ci il protokolunda həmin vaxtadək aparılmış bütün işlərin başa çatdırıldığı əksini tapıb.

***

Sovet dövründəki sərhədləri əsas götürmək SSRİ-dəki bütün millətlərarası münaqişələri bərpa etmək deməkdir. Belə bir ambisioz fikri dilə gətirən isə Ermənistanın keçmiş baş naziri Xosrov Arutyunyandır. Sabiq baş nazirin bildirdikləri “kim güclüdürsə, o qazanmalıdır” məntiqi ilə gedilməsini rəhbər tutur. O zaman X.Arutyunyan hazırda güclü tərəf olan Azərbaycanın öz üstünlüyünü ərazi üstünlüyünə çevirməsi ilə razıdırmı? Bu şəxsin nəyi düşündüyü ilk baxışdan qeyri-müəyyəndir. Amma o deyir: “Sovet dövrünün inzibati sərhədlərinin təkrar istehsalının zəruriliyindən danışarkən, bu sərhədlərin nə olduğunu anlamaq lazımdır. Bu sərhədlər elə çəkilirdi ki, iki qonşu respublika arasında həmişə ərazi mübahisələri yaransın. Mahiyyət məhz bundan ibarət idi. Yerlərdə problemlər yaratmaq ki, Moskvanın təmsil olunduğu mərkəz prosesləri idarə etsin. Sovet dövrünün sərhədinin bərpası mövcud bütün millətlərarası münaqişələrin bərpasına və dərinləşməsinə töhfə vermək deməkdir”.

Göründüyü kimi, sabiq baş nazirin dediklərində müəyyən reallıq payı var. O, SSRİ-nin dağılmasından sonra da ərazi mübahisələrinin və iddialarının davam etdiyinə diqqət çəkib: “Qırğızıstanın Qazaxıstana, Tacikistan və Özbəkistana, Özbəkistanın Qazaxıstana, Estoniyanın Rusiyaya qarşı iddiaları var. Elə bir postsovet respublikası yoxdur ki, qonşusu ilə ərazi mübahisəsi olmasın. Niyə? Bəli, ona görə ki, millətlərarası münaqişələrin mərkəz tərəfindən idarə olunması məqsədi ilə aparılan iş sərhədlərin formallaşması konsepsiyasını rəhbər tuturdu. Yəni, bu, sovet hökumətinin siyasətinin əsasını təşkil edirdi”.

Bəli, Arutyunyan keçmiş SSRİ-nin imperiya xislətli “parçala – hökm sür!” siyasətinin detallarını açıqlayır. O, eyni zamanda, vurğulayır ki, delimitasiya, xüsusən də düşmənçilik və qarşılıqlı etimadsızlıq şəraitində getməməlidir. Buna görə də onun sovet inzibati sərhədlərinin təkrar istehsalı ilə heç bir əlaqəsi olmamalıdır. Bəs proses necə getməlidir, sabiq baş nazirin mövcud xüsusda da fikirləri var.

Bölgədə uzunmüddətli və dönməz sülhün qəralaşması naminə ilkin şərtlər baxımından hazırkı delimitasiya prosesinin yolverilməzliyini deyən sabiq baş nazir əmindir ki, sovet dövründə, istər 1976, istərsə də 1988-ci ildə, əsas ola biləcək heç bir xəritə yoxdur. O, nə üçün belə fikirdədir? Çünki “Bakı istənilən vaxt bəyan edə bilər ki, o, Sovet Azərbaycanının hüquqi varisi deyil”. Göründüyü kimi, X.Arutyunyan destruktiv davranışın başlıca xətt kimi seçilməsinin tərəfdarıdır. O, tipik erməni xislətini işə salır. Ancaq sabiq baş nazir öz aləmində çıxış yolu da müəyyənləşdirir və deyir ki, regionda uzunmüddətli sülhə nail olmaq üçün 2017-ci ildə ATƏT Katibliyinin delimitasiya və demarkasiyaya, təxirəsalınmaz vəzifələr və həll yollarına dair sənədi rəhbər tutulmalıdır.

Qeyd edək ki, X.Arutyunyanın dedikləri Ermənistan Milli Assambleyasının bu il aprelin 30-da keçirilmiş iclasında yaşananlarla uyğundur. Həmin gün deputatlar Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sərhədin delimitasiyası və demarkasiyasına dair bəyanat layihəsinin parlament iclasının gündəliyinə daxil edilməsinin əleyhinə səs vermişdilər. Layihənin müəllifi isə müxalif “Ermənistan” fraksiyası idi. Daha doğrusu, həmin fraksiyadan olan Artur Xaçatryan.

Layihədə bildirilirdi ki, demarkasiya baxımından əsas 1993-cü ilin faktiki mövcud sərhədləri olmalıdır. Orada delimitasiyası üçün BMT Nizamnaməsinin, Vyana Konvensiyasının, Helsinki Yekun Aktının və ATƏT Katibliyinin haqqında söz açdığımız sənədinin prinsip kimi götürülməsi təklif olunurdu. O da vurğulanırdı ki, delimitasiyanın əsası 24 sentyabr 1993-cü il tarixinədək olan sərhəddir. Yəni, Azərbaycanın MDB-yə daxil olduğu dövrdəki faktiki sərhəd. Bu isə o demək idi ki, ölkəmizin torpaqlarının işğalı faktı rəsmiləşirdi. Yəni, ortada belə bir həyasızlıq əməli var idi. Əslində, keçmiş baş nazir X.Arutyunyanın ATƏT-in Katibliyinin 2017-ci il sənədinə istinad etməsi də böyük ölçüdə həyasızlıqdır.

Yekunda belə qənaətə gəlirik ki, Ermənistanda Azərbaycanla sülh prosesini, daha dəqiq desək, sülhün vacib komponenti sayılan delimitasiya və demarkasiya işlərini pozmağa yönələn qüvvələr hər gün özlərindən hoqqa çıxara, hansısa sərsəm fikirlər ortaya ata bilərlər. Başlıca məqam isə ölkə iqtidarının belə “yanaşmalara” nə dərəcədə əhəmiyyət verməsidir. Daha doğrusu, cəfəng fikirlər qarşısında geri çəkilməməsi, prinsipial mövqe tutmasıdır. Nəzərə alaq ki, bu mövqedən nəinki Cənubi Qafqazda sülh mühitinin formalaşması, habelə Ermənistan adlı dövlətin gələcək varlığı asılıdır. Axı baş nazir Nikol Paşinyan özü demişdi ki, delimitasiya və demarkasiya prosesinin pozulması yeni müharibədir. Yəni, Ermənistan adlı dövlətin süqutunu doğuracaq savaş.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# II Qaregin – üzü libasından qara

**Ermənistanda Azərbaycanla sülhün əldə olunmasına imkan verməyənlərin önündə revanşist düşüncələrlə yaşayan radikal müxalifətin və erməni apostol kilsəsinin dayandığı heç kimə sirr deyil. Din adına ləkə olan kilsənin fəaliyyəti tarixən belə olub. Erməni və Azərbaycan xalqları arasında fitnə-fəsad salınmasında, nifaq yaradılmasında da kilsənin mühüm rolu var. Keşişlər Rusiya və İran arasında imzalanmış Gülüstan və Türkmənçay müqavilələrindən sonra bölgəyə köçürülmüş erməni əhalisini azərbaycanlılarla mehriban şəraitdə yaşamağa səsləmək əvəzinə aranı qızışdırmağa çalışıblar.**

Aparılan tədbirlər çox keçməmiş “bəhrəsini” verib. Xalqlararası düşmənçiliyin körüklənməsi 1905-1906-cı illər hadisələrinə gətirib çıxarıb. Kilsənin bu dəst-xətti sonrakı onilliklər ərzində də davam edib. Xaricdən dəstəklənən kilsənin daxildə güclü ideoloji iş aparması 1980-ci illərin sonlarında ermənilərin Qarabağda separatçı çıxışlarının başlanmasında özünəməxsus rol oynayıb. Münaqişə və sonradan müharibəyə çevrilən hadisələr erməni xalqına bəlalar gətirsə də, kilsə proseslərdən uduşlu çıxmağı bacarıb. Onlar bu müddət ərzində qanunsuz yolla böyük sərvət toplayıblar. Konstitusiyada kilsənin xüsusi imtiyazının olması onu qeyri-şəffaf fəaliyyət göstərməyə sövq edib. Məlumata görə, kilsə əldə etdiyi qazancdan illər boyu dövlətə ya vergi verməyib, ya da çox az ödəyib.

Kilsə hər zaman Azərbaycan və Türkiyə ilə münasibətlərin pis olmasından yararlanıb. Onlar özlərini hər zaman qonşu türklərə və azərbaycanlılara qarşı düşmənçilik ideologiyası üzərindən formalaşdırıblar. Həmin qruplaşmanın maddi sərvətlər əldə etməsi də bu əsaslar üzərindən olub. Cəmiyyətdən də düşmənçilik şüarları səsləndirmələri səbəbindən dəstək alıblar. İndi isə keşişlər Ermənistan rəhbərliyinin bu iki ölkə ilə münasibətləri yaxşılaşdırmaq kursu götürməsinin onları qazancdan məhrum edəcəyi qorxusundadırlar. Bu mənada, əslində, kilsənin Tavuş vilayəti üzrə arxiyepiskop Baqrat Qalstanyanın timsalında qarşıdurmaya getməsi təəccüb doğurmamalıdır.

Ümumiyyətlə, kilsə, diaspor və Qarabağ klanı daşnak ideologiyasının təsiri altında olan qruplaşmalardır. Bu qruplaşmalar başa düşürlər ki, ölkəmizlə normallaşma prosesi olarsa, sülh sazişi imzalanarsa, onların gəliri əldən çıxacaq, əsl simaları ifşa olunacaq. Nikol Paşinyan iqtidarının Bakı və Ankara ilə münasibətlərdə konstruktiv mövqe tutması kilsəni, radikal müxalifəti, sözün əsl mənasında, təhdid edir. Onlar hər vasitə ilə düşmənçiliyin, necə deyərlər, ömrünü uzatmağa çalışırlar.

Ancaq görünən odur ki, daha kilsənin əvvəlki yalanları işə keçmir. Eyni zamanda, rəsmi İrəvan da Eçmiədzin qarşısında geri çəkilmək niyyətində deyil. Əksinə, onun qanunsuz əməllərini ifşa etməkdə israrlıdır. Bu, son etiraz aksiyalarının idarə olunmasında mühüm rola malik kilsənin cəzalandırılması kimi də qəbul oluna bilər. Bir neçə gün öncə parlamentdə etdiyi çıxışda Paşinyan kilsənin Ermənistanda ictimai rəyə ən böyük təsir agenti olduğunu və bunun aradan qaldırılacağını deyib.

Baş nazir bildirib ki, yaxın iki-üç ay ərzində kilsənin ictimai rəyə təsirlərinin aradan qaldırılması üçün qətiyyətli tədbirlər görüləcək. Onun sözlərinə görə, Ermənistanda tarix boyu din xadimləri gedib xaricdəki dini mərkəzlərdə təhsil alıb, qayıtdıqdan sonra isə agentlərə çevriliblər. Görünən odur ki, həmin ənənə indi də dəyişməyib. “Lakin biz yaranmış problemi iki-üç ay ərzində həll edəcəyik” – deyən Nikol bununla kilsəyə qarşı ciddi addımların atılacağının anonsunu vermiş olub.

Bugünlərdə Ermənistanın media orqanlarında və teleqram kanallarında kilsənin qanunsuz əməlləri ilə bağlı ardıcıl yazılar dərc olunur. Hayastanda populyar olan “Baqramyan 26” teleqram kanalında yerləşdirilmiş “Katolikos şam məsələsində dövləti necə aldatdı” sərlövhəli məqalədə bildirilir: “Uzun müddətdir xalq arasında belə bir fikir formalaşıb ki, “müqəddəs Eçmiədzin”in birinci şəxsi şam satışından külli miqdarda gəlir əldə edir, ondan vergi tutulmur, şam biznesi isə “çirkli pulların yuyulması” üçün ciddi resursdur.

Qeyd edilir ki, mövcud hakimiyyət 2018-ci ildən bəri kilsəyə şamların satışının vergi uçotunu aparmağın mümkün olacağı müxtəlif mexanizmlər təklif edib, eyni zamanda, dövlət bunun kilsənin normal fəaliyyətinə təsir göstərməməsi üçün kömək edəcəyini açıqlayıb. Dövlətin təklifinin məqsədi vergitutmanın özü deyil, qeyri-şəffaf fəaliyyətlərin qarşısının alınması və “çirkli pulların yuyulması”na qarşı mübarizə idi: “Kilsə isə hökumətlə bu təklifləri dəfələrlə müzakirə edib və hər dəfə onları rədd edib. Və kilsə birdən, qəfildən bu barədə narahat olmağı dayandırdı. Mənbələrimiz xəbər verirlər ki, Ermənistana şam idxalı uzun müddət hökumətin sanksiyasına məruz qalan xeyriyyə idxalı kimi rəsmiləşdirilib. Lakin bu yaxınlarda katolikos II Qaregin maraqlı bir mexanizm ortaya atıb. Həmin mexanizm katolikosun dövləti qardaşı vasitəsilə aldatmasını nəzərdə tutur. Bu mexanizm vasitəsilə arxiyepiskop Yezras Rusiyadan Ermənistana şam gətirməyə və onu kilsəyə ianə kimi rəsmiləşdirməyə başlayıb. Bu halda, şamların, guya, Avrasiya İqtisadi İttifaqı üzvü olan ölkənin ərazisində vergiyə cəlb edildiyi və buna görə də Ermənistanda vergiyə cəlb olunmadığı qeyd olunur”.



“Baqramyan 26” yazır: “II Qareginin ətrafındakı arxiyepiskopların tez-tez “dövlət əbədi deyil, əbədi olan kilsəni gücləndirmək lazımdır” fikrini səsləndirmələri təsadüfi deyil. Onların son həftələrdəki hərəkətləri çox güman ki, məhz bu məqsədə xidmət edir: Ermənistanda dövlət yox, erməni apostol kilsəsinin dini icması olmalıdır. Onlar isə guya, icmanın lideridir”.

Onu da bildirək ki, Paşinyan bir müddət öncə sosial şəbəkələrdə milli dəyərlərin yeni siyahısını dərc edib və bura erməni apostol kilsəsini, erməni katolik kilsəsini, erməni yevangelist kilsəsini və xristianlığı daxil edib. Teleqram kanalı qeyd edir ki, katolik və yevangelist kilsələrini erməni apostol kilsəsi ilə eyniləşdirməklə, görünür, Paşinyan hazırda mövcud hakimiyyətə qarşı çıxan ruhanilər arasında qarışıqlıq salmaq istəyib.

Yayılan bir məlumatda isə II Qareginin sovet dövründə Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən həbs edildiyi, onun komitənin Kaliningradda yerləşən zirzəmisində 6 ay saxlanıldığı qeyd edilir. Bildirilir ki, katolikos bu tarixdən sonra dinə xidmət adı altında, əslində, ideologiyası elmi ateizm olan sovet quruluşuna xidmət etməyə başlayıb.

Kilsənin və katolikosun qara əməllərini ardıcıl ifşa edən bloger Roman Bağdasaryanın “YouTube”da yerləşdirdiyi videoda səsləndirdiyi fikirlər də olduqca maraqlıdır. O bildirir ki, özünü din xadimi kimi qələmə verən və Moskvada 23 ildən artıq işləmiş arxiyepiskop Yezras Rusiyada reketçiliklə məşğul olan güclü cinayətkar mafiya yarada bilib. Bloger qeyd edib ki, Moskva yeparxiyası 1996-cı ildə Rusiya paytaxtında kilsənin inşasına başlayıb, lakin tikinti yalnız 2013-cü ildə başa çatdırılıb. Bu müddətdə kütləvi mənimsəmə halları olub. Bağdasaryan deyib ki, ermənilər Moskvada özləri üçün 6 ay ərzində ticarət mərkəzi tikirlər, kilsə tikintisi isə 17 il davam edib. Onun sözlərinə görə, II Qaregin və qardaşı Yezras kilsənin tikintisindən pul qazanmaq qərarına gəliblər və müxtəlif bəhanələrlə tikinti müddətini 20 ilə yaxın uzadıblar.

Göründüyü kimi, artıq Ermənistan media qurumları və blogerləri də kilsənin çirkin oyunlarını ifşa edirlər. Güman etmək olar ki, bu kimi fikirlər hayların düşüncəsində özünə möhkəm yer tapacaq və erməni xalqı mayın 26-da paytaxtda mitinq keçirmək istəyən qüvvələrə birdəfəlik “yox!” deyəcək. Əks-təqdirdə hayların iflası qaçılmaz olacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Özəl bölmə Qarabağın dirçəlişinə töhfəsini artırır

(əvvəli 1-ci səhifədə)

Ümumilikdə, Qarabağın yaşayış sahələrində cari il ərzində 70 obyektin istifadəyə verilməsi nəticəsində 1009 iş yerinin açılacağı nəzərdə tutulur. Bu ərazilərdə məskunlaşma prosesi ilə yanaşı bütün sahələrin iqtisadi aktivliyinin artırılması paralel şəkildə həyata keçirilir.

Qarabağ iqtisadi rayonunda özəl sektorun inkişafının diqqətdə saxlanılması yeni iş yerlərinin açılmasını sürətləndirir. Azərbaycanın işğaldan azad olunan ərazilərində fəaliyyət göstərmək üçün müraciət edən sahibkarların sayının artıq 2 mini keçməsi də bunun bariz ifadəsidir. Ə.Məmmədovun sözlərinə görə, müraciətlərin yarıdan çoxu investisiya yönümlüdür. "Bu müraciətlər üzrə ümumi dəyəri 575 milyon manat olan layihələrin 299-u icra edilir. Hazırda fəaliyyət göstərən 219 layihənin 89-u Qarabağda, 130-u isə Şərqi Zəngəzur iqtisadi rayonunda reallaşdırılır. Bütün layihələr gerçəkləşdirildikdən sonra 1879 şəxsin işlə təmin ediləcəyi nəzərdə tutulur".

Bugünədək Şərqi Zəngəzur iqtisadi rayonunda 11 müəssisə qeydiyyata alınıb ki, bunun da 10-u rezident, 1-i isə qeyri-rezidentdir. Layihələrin ümumi investisiya dəyəri isə 68 milyon manat təşkil edir.

Burada 708 şəxs işlə təmin ediləcək. Hazırda 1 müəssisə fəaliyyət göstərir. Bu il isə daha 2 müəssisənin fəaliyyətə başlayacağı gözlənilir. Şərqi Zəngəzurda fəaliyyət göstərmək üçün daha 9 müraciət daxil olub ki, bu müraciətlər də bilavasitə rezident statusu almaq üçündür.

Xatırladaq ki, Şərqi Zəngəzur iqtisadi rayonuna Cəbrayıl, Qubadlı və Zəngilan rayonları daxildir. Bu bölgə əlvan metallurgiyanın inkişafı üçün böyük potensiala malikdir. İqtisadi rayon həm də coğrafi mövqeyinə və tarixi abidələrinə görə turistik əhəmiyyət daşıyır. Məlum olduğu kimi, bu ərazidə İstisu, Minkənd kimi mineral bulaqlar və meşələr var ki, sözügedən rayon kurort məqsədləri üçün ideal bir məkandır.

Qeyd edək ki, işğaldan azad edilən ərazilərdə sahibkarların daha səmərəli fəaliyyətləri üçün müəyyən güzəştlər yaradılıb. Məsələn, bir sıra iş adamlarının (rezidentlərin) maliyyə çıxışı artıq həll edilib. Onlara hökumət tərəfindən 500 milyon manat həcmində kredit portfeli təqdim olunub. Həmin kreditlərin 450 milyon manatına dövlət zəmanəti verilib.

Ə.Məmmədov qeyd edib ki, bu ərazilərdə fəaliyyət göstərən hər bir sahibkara 1 kreditin məbləği 5 milyon manatı keçməmək şərtilə dövlət zəmanəti əsasında verilir. Həmin kreditlər 7 il müddətinə ayrılır. Burada kredit faizlərinin subsidiyalaşdırılmasına əsas məsələ kimi yanaşılır, kreditlərin 10 faizə qədəri dövlət tərəfindən subsidiyalaşdırılır.

Bundan əlavə, sahibkarlıq fəaliyyəti üçün qoyulan investisiyanın əsas hissəsini təşkil edən kreditlərlə bağlı dövlət dəstəyi də artıq müəyyənləşdirilib. Azad olunan ərazilərdə fəaliyyət göstərən sahibkarlara kreditlər verilməsini dəstəkləmək məqsədilə Azərbaycan Prezidentinin 2023-cü il 9 yanvar tarixli Fərmanı ilə təsdiqlənən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" və ona əlavə olunmuş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" qəbul olunub.

Bu qayda Qarabağ və Şərqi Zəngəzur regionunda fəaliyyət göstərən biznes subyektlərinə verilən kreditlər üçün dövlət zəmanəti və alınan kreditlərin faizlərinin subsidiyalaşdırılması şərtlərini müəyyən edir. Dövlət zəmanəti ilə alınmış kreditlərdə zamin rolunu Maliyyə Nazirliyi oynayır.



İşğaldan azad olunan ərazilərdə tikinti fəaliyyəti ilə məşğul olan sahibkarlar, o cümlədən tikinti materiallarının istehsalı ilə məşğul olan özəl bölmə subyektləri dövriyyə vəsaitləri üçün müvəkkil banklardan 2 ildən daha uzun müddətə kredit cəlb edə biləcəklər.

İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) məlumatında qeyd edilir ki, digər güzəşt isə subsidiyalarla bağlıdır. Belə ki, İKZF sahibkarlıq subyektinin əvəzindən müvəkkil banka 8 faiz həndi həcmində subsidiya ödəmək səlahiyyətinə malikdir. Eyni zamanda, sahibkarlıq subyektinin investisiya təşviqi sənədi varsa, fond 10 faiz həndi həcmində subsidiya vermək səlahiyyətinə də sahibdir.

Onu da qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu il fevral ayının əvvəlindən başlayaraq elektron kredit və zəmanət informasiya sistemi fəaliyyət göstərir. Artıq bu portal üzərindən müraciətlər qəbul edilir.

Ölkəmizin işğaldan azad olunan ərazilərində hazırda 31 rezident statusu alan sahibkarlıq subyektinə bütün vergi güzəştlərindən istifadə etmək şəraiti yaradılıb. Onlara əmlak, torpaq, mənfəət, fiziki şəxslərə münasibətdə gəlir vergisindən, sadələşdirilmiş, habelə dividendlərə görə vergilərdən azad olma imkanı verilib. Bütün bunlarla yanaşı, idxal edilən texnikaların, texnoloji qurğuların ƏDV-dən, habelə idxal məqsədli texnika, xammal və materialların gömrük rüsumundan azad edilməsi də diqqətdə saxlanılıb.

Hazırda məcburi dövlət sosial sığorta üzrə ödənişlərin subsidiyalaşması prosesi gedir və artıq rezidentlər bu imkanlardan istifadə edirlər.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iş yerlərinin yaradılması bu bölgələrdə fəaliyyət göstərən sənaye zonaları üçün prioritet istiqamətdir. Cari ilin sonuna qədər Ağdam Sənaye Parkında daha 6 müəssisənin fəaliyyətinin nəzərdə tutulması da bunun bariz ifadəsidir.

Xatırladaq ki, parkda 27 müəssisə qeydiyyatdan keçib ki, bunun da 21-i rezident, 6-sı isə qeyri-rezident statusludur. Onların layihələrinin ümumi dəyəri 195,5 milyon manatdır. Bu il artıq 1 müəssisə fəaliyyətə başlayıb, qeyd edildiyi kimi, 6 müəssisənin isə açılışı gözlənilir. Eyni zamanda, daha 10 müraciət üzərində iş gedir. Onların da 6-sı rezident statusu almaq üzrədir.

Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanı ilə yaradılan Ağdam Sənaye Parkı işğaldan azad edilən ərazilərin biznes potensialının reallaşdırılması, qeyri-neft sektorunun inkişafı, məşğulluq səviyyəsinin yüksəldilməsi və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması baxımından mühüm önəm daşıyır.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı isə "Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında" Prezident İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli Fərmanı ilə yaradılıb. Bundan əsas məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil olunması, eyni zamanda, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Hazırda Azərbaycanda fəaliyyət göstərən sənaye zonalarında rezidentlər üçün stimullaşdırıcı tədbirlərə üstünlük verilir. İşğaldan azad edilmiş ərazilərdəki Ağdam və Araz Vadisi sənaye parklarında isə əlavə güzəştlər də tətbiq edilir. Bunlara əsasən xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən azadolma aiddir.

***Vaqif BAYRAMOV***
***XQ***

## Bakıdan çıxan yük qatarı Qarsa çatdı




**Azərbaycandan ilk yük qatarı modernləşdirilmiş Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti ilə mayın 25-də səhər saatlarında Türkiyə ərazisinə daxil olub. Qatar 20 konteynerə yüklənmiş 632 ton plastik xammalı Bakıdan Qarsa çatdırıb.**

Yerli vaxtla saat 04.50-də Qars stansiyasına çatan qatar müvafiq gömrük prosedurlarından sonra Qars logistika mərkəzinə aparılıb.

Xatırladaq ki, 2023-cü ilin may ayında BTQ dəmir yolunun Gürcüstan hissəsinin 184 kilometrlik hissəsinin modernləşdirilməsi və genişləndirilməsinə başlanan işlər bu il mayın 20-də tamamlanıb.

## Gömrük xəzinəyə 4 ayda 2 milyard manat qazandırıb

**Dövlət Gömrük Komitəsindən (DGK) bildirildiyinə görə, cari ilin yanvar-aprel aylarında bu sahədən büdcə daxilolmaları 1 milyard 980 milyon manat təşkil edib.**



Son bir ildə gömrük rüsumları üzrə daxilolmalar 52,4 faiz artaraq 757 milyon manat, əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 22 faiz azalaraq 1 milyard 146,7 milyon manat, aksizlər üzrə daxilolmalar 2 faiz artaraq 63,6 milyon manat, yol vergisi üzrə daxilolmalar isə 25,4 faiz azalaraq 12 milyon 703 min manat olub.

## Sığorta yığımları yüksəlib

**Bu ilin yanvar-aprel aylarında Azərbaycanda sığorta yığımlarının həcmi 543 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 16,1 faiz çox) təşkil edib.**

Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatında daha sonra bildirilir ki, hesabat dövründə sığorta şirkətləri tərəfindən 209,6 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 56 faiz çox) sığorta ödənişi edilib.

Bu ilin ilk dörd ayında sığorta bazarının zərərliliyi (ödəniş-yığım nisbəti) 28,8 faizdən 38,6 faizə yüksəlib.

## Ötən il qeyri-neft ixracı 3,3 milyard dolları ötüb

**2023-cü ildə ölkədə qeyri-neft-qaz məhsullarının ixracı əvvəlki illə müqayisədə faktiki qiymətlərlə 9,8 faiz, real ifadədə isə 3,9 faiz artaraq 3 milyard 348 milyon ABŞ dolları təşkil edib.**



Bu barədə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası" haqqında hesabatda qeyd olunub. Bildirilib ki, ötən ilin sonuna olan məlumata əsasən, profisiti tədiyyə balansı şəraitində ölkənin məcmu valyuta ehtiyatları əvvəlki illə müqayisədə 17,1 faiz artaraq 68,5 milyard dolları ötüb. Bu göstərici ümumi daxili məhsulun 94,7 faizinə bərabər olmaqla xarici dövlət borcunu, təqribən, 10,6 dəfə üstələyib.

***XQ***

## Büdcə tərəqqinin baş generatorudur

**2024-cü ilin ötən dövründə ölkəmizdə müasir iqtisadi yanaşmaların diqqətdə saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin gücləndirilməsi, şəffaflığın artırılması kimi mühüm addımların davam etdirilməsi dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafı bir qədər də sürətləndirib. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-aprel aylarında Azərbaycanda 38 milyard 181,9 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çoxdur. Hesabat dövründə iqtisadiyyatın qeyri-neft-qaz sektorunda isə məhsul istehsalı 24 milyard 247,3 milyon manat təşkil edib. Bu isə ötən ilin eyni dövrünə nisbətən 7,7 faiz artıqdır.**

Bu ilin ötən dövrü ərzində dövlət büdcəsinin gəlirlərinin proqnozlara qarşı əhəmiyyətli dərəcədə çoxalması, ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafına dair ötən ilin sonlarında verilmiş proqnozun yenilənməsi və ÜDM-in əvvəlki proqnozla müqayisədə 3 milyard manat artırılması 2024-cü ilin dövlət büdcəsində əlavə maliyyə resurslarının formalaşdırılması və bölünməsini gündəmə gətirib. Bu səbəbdən də dövlət büdcəsinə yenidən baxılmasına zərurət yaranıb. Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin büdcə gəlirlərinin mövcud vəziyyəti və dinamikası əlavə maliyyə təminatının formalaşdırılması üçün etibarlı zəmin yaradır.

Bununla yanaşı, qurum dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirən amilləri də açıqlayıb. Həmin amillərdən biri Böyük Qayıdış Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün əlavə maliyyə təminatının yaradılması ilə bağlıdır. Bununla yanaşı, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpası edilməsindən sonrakı dövrdə də dövlətin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin möhkəmləndirilməsi, ordumuzun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi üçün əlavə maliyyə təminatının formalaşdırılmasına zərurət yaranıb. Büdcəyə yenidən baxılmanı şərtləndirən amillərdən biri də yeni infrastruktur layihələrinin (avtomobil yollarının tikintisi, elektrik şəbəkəsinin gücləndirilməsi, suvarma və irriqasiya sistemlərinin yaxşılaşdırılması və s.) həyata keçirilməsi, habelə beynəlxalq fəaliyyət və tədbirlər üzrə xərclər, dəmir yolu vasitəsilə şəhərətrafı sərnişin daşınması və digər daşımalar üzrə subsidiyaların verilməsi, nəqliyyat vasitələrinin utilizasiyası fondunun xərcləri və digər zəruri əsaslı alışlar üzrə əlavə maliyyə təminatının yaradılmasından ibarətdir.

Azərbaycanın dövlət büdcəsinin gəlirlərində və xərclərində gözlənilən artıma gəlincə isə, Maliyyə Nazirliyindən bildirilib ki, ölkəmizin yenidən baxılan 2024-cü il dövlət büdcəsinin gəlirləri ilə bağlı proqnoz 34 milyard 173 milyon manatdan 36 milyard 353 milyon manata, xərcləri ilə bağlı proqnoz isə 36 milyard 763 milyon manatdan 39 milyard 707,3 milyon manata çatdırılacaq.

Beləliklə, yenidən baxılma ilə 2024-cü il icmal büdcənin gəlirləri 43 milyard 480 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 4 milyard 482,5 milyon manat və ya 11,5 faiz çoxdur. İcmal büdcənin xərcləri 45 milyard 591,8 milyon manat proqnozlaşdırılır. Bu isə təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 215,6 milyon manat və ya 7,6 faiz çoxdur. Eyni zamanda, bu rəqəm 2023-cü ilin icra göstəricisinə nisbətən isə 5 milyard 258,5 milyon manat və ya 13 faiz artıqdır. İcmal büdcə 2 milyard 111,8 milyon manat kəsirlə proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş kəsirə nisbətən 1 milyard 267 milyon manat və ya 37,5 faiz azdır. Müvafiq olaraq dövlət büdcəsinin tərkibində əsaslı xərclərin xüsusi çəkisi 5,9 faiz bənd artacaq, cari xərclərin xüsusi çəkisi 3,8 faiz bənd, dövlət borcuna xidmətlə bağlı xərclərin xüsusi çəkisi isə 2,1 faiz bənd azalacaq.

İcmal büdcənin tərkibinə daxil olan Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) büdcəsinin gəlirləri cari ilin təsdiq olunmuş göstərici ilə müqayisədə 2 milyard 36 milyon manat və ya 16,9 faiz artaraq 14 milyard 109,2 milyon manat məbləğində nəzərdə tutulur. Bu il ARDNF-nin büdcəsinin xərcləri isə 12 milyard 866,7 milyon manat təşkil edəcək ki, bu da əvvəlcədən təsdiq olunmuş göstərici ilə müqayisədə 4,7 milyon manat çoxdur. Yeri gəlmişkən, bu il ARDNF-dən dövlət büdcəsinə 12 milyard 781 milyon manat transfert nəzərdə tutulub.

Bunula yanaşı, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiəsi Fondunun büdcəsinin gəlirləri və xərcləri bərabər olaraq 30 milyon manat (0,4 faiz) artırılmaqla 6 milyard 949,9 milyon manat, İcbari Tibbi Sığorta Fondunun gəlir və xərcləri bərabər olaraq 38,9 milyon manat (1,4 faiz) artırılmaqla 2850,3 milyon manat təşkil edəcək. İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri isə təsdiq olunmuş məbləğdə, yəni 238 milyon manat proqnozlaşdırılır.

Yenidən baxılma ilə 2024-cü il dövlət büdcəsinin xərcləri funksional təsnifata uyğun olaraq iqtisadi fəaliyyət (dövlət əsaslı vəsait qoyuluşu, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və digər xərclər) xərcləri təsdiq olunmuş 7 milyard 788 milyon manata qarşı 9 milyard 902,7 milyon manat və ya 2 milyard 114,7 milyon manat (27,2 faiz) çoxdur. Yeri gəlmişkən, Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunan ərazilərin yenidən qurulması və bərpası istiqamətində mühüm layihələr reallaşdırılıb. Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 3 milyard 825 milyon manat vəsait nəzərdə tutulduğu halda, yenidən baxılma nəticəsində bu məbləğin 4 milyard 855,8 milyon manata çatdırılması nəzərdə tutulub.



Dövlət büdcəsinə yenidən baxılarkən ölkə iqtisadiyyatının aparıcı sahələrindən sayılan kənd təsərrüfatı üçün də əlavə vəsaitin ayrılması məqsədəuyğun hesab edilib. Belə ki, 2024-cü il üzrə dövlət büdcəsindən sözügedən sahəyə 1 milyard 102,6 milyon manat vəsait ayrılmışdısa, yenidən baxılmadan sonra bu vəsait daha 100 milyon manat artırılaraq 1 milyard 202,6 milyon manata çatdırılacaq.

2024-cü ilin büdcəsində müdafiə və milli təhlükəsizlik, əsas bölmələrə aid edilməyən xidmətlər, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinin də əhəmiyyətli dərəcədə artırılması nəzərdə tutulur. Bununla belə, ümumi dövlət xidmətləri (qanunvericilik və icra hakimiyyəti, beynəlxalq münasibətlər, xarici ölkələrə yardımlar, büdcələrarası transfertlər, dövlət borcu), səhiyyə, sosial-müdafiə və sosial təminatla bağlı əvvəlcədən nəzərdə tutulmuş xərclərin bir qədər azaldılması, təhsil, mənzil və kommunal təsərrüfatı, eləcə də ətraf mühitin mühafizəsi xərcləri isə təsdiq olunmuş məbləğdə proqnozlaşdırılır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 262** **Bakı şəhəri 16 may 2024-cü il**

**“Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 272** **Bakı şəhəri 22 may 2024-cü il**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında**

“Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci və Naxçıvan Hərbi Kolleci yaradılsın.

**2.** Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki aşağıdakı xüsusi təyinatlı təhsil müəssisələrinin nizamnamələri təsdiq edilsin:

2.1. “Bakı Hərbi Kollecinin Nizamnaməsi” (1 nömrəli əlavə);

2.2. “Gəncə Hərbi Kollecinin Nizamnaməsi” (2 nömrəli əlavə);

2.3. “Naxçıvan Hərbi Kollecinin Nizamnaməsi” (3 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 276** **Bakı şəhəri 24 may 2024-cü il**

**“Müstəqil ekspert fəaliyyətinin həyata keçirildiyi sahələr”in təsdiq edilməsi haqqında**

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanu-nunda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 948-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 13 mart tarixli 735 nömrəli, “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradıl-ması haqqında” 2016-cı il 11 aprel tarixli 860 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2266 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Müstəqil ekspert fəaliyyətinin həyata keçirildiyi sahələr” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 277** **Bakı şəhəri 24 may 2024-cü il**

**“Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 948-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 13 mart tarixli 735 nömrəli, “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” 2016-cı il 11 aprel tarixli 860 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2266 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 278** **Bakı şəhəri 24 may 2024-cü il**

**“Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 8 oktyabr tarixli 325 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 8 oktyabr tarixli 325 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1296 (Cild I) 1-ci hissəsində “11” rəqəmləri “12” rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 281** **Bakı şəhəri 24 may 2024-cü il**

**“Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 78) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin “DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları”nda cədvəldən sonrakı mətnin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində və digər reabilitasiya müəssisələrində, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin “DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində (gün ərzində bir dəfə nahar zamanı yeməklə təmin olunma nəzərə alınmaqla) xidmətə götürülmüş şəxslərin qidalanması bu Əlavə ilə müəyyən edilmiş normalara uyğun (böyüklər üçün 3-cü sütun, uşaqlar üçün 6-cı sütun) təmin edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 282** **Bakı şəhəri 24 may 2024-cü il**

**Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında**

“Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbə-lərindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid iki hissədən ibarət 940,0 hektar torpaq sahəsi qoyuluş gücü 240 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası”nın tələblərinə uyğun həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 940,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

**“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 may 2024-cü il tarixli 274 və 275 nömrəli qərarları ilə qəzetimizin saytında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 279** **Bakı şəhəri 24 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 80 (Cild I) ilə təsdiq edilmiş “Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.2-ci bəndin ikinci abzasın**ın ikinci cümləsində** “quru yollar” sözləri “avtomobil yolları” **sözləri ilə**, “(DOPOQ)” akronimi “(ADR) (bundan sonra – Avropa Sazişi)” sözləri ilə **əvəz edilsin və həmin abzasın qeyd hissəsinin birinci cümləsindən “**(DOPOQ) barədə” sözləri çıxarılsın.

2. 1.4-cü bəndin birinci abzasında “Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında” Avropa Sazişinin (DOPOQ) müddəaları”, eləcə də” sözləri “Avropa Sazişinin müddəaları, eləcə də” sözləri ilə əvəz edilsin.

3. Həmin Qaydalara 5 nömrəli əlavə - “Nəqliyyat vasitəsinin təhlükəli yüklərin daşınmasına buraxılması haqqında şəhadətnamə” aşağıdakı redaksiyada verilsin:

**NƏQLİYYAT VASİTƏSİNİN TƏHLÜKƏLİ YÜKLƏRİN DAŞINMASINA BURAXILMASI HAQQINDA ŞƏHADƏTNAMƏ**
**CERTIFICATE OF APPROVAL FOR VEHICLES CARRYING CERTAIN DANGEROUS GOODS**

Bu Şəhadətnamə təsdiq edir ki, aşağıda qeyd olunmuş nəqliyyat vasitəsi “Təhlükəli yüklərin avtomobil yolları ilə beynəlxalq daşımaları haqqında” Avropa Sazişində (ADR) qeyd olunmuş şərtlərə cavab verir.
This certificate testifies that the vehicle specified below fulfils the conditions prescribed by the European Agreement concerning the International Carriage of Dangerous Goods by Road (ADR).

| 1. **Şəhadətnamənin №-si / Certificate No.:** | 2. **Nəqliyyat vasitəsinin istehsalçısı / Vehicle manufacturer:** | 3. **Nəqliyyat vasitəsinin şassi və ban №-si / Vehicle Identification №.:** | 4. **Dövlət qeydiyyat nişanı** (əgər vardırsa) **/ Registration number** (if any)**:** |
|---|---|---|---|

5. **Daşıyıcının, operatorun və ya mülkiyyətçinin adı və onun ünvanı / Name and business address of carrier, operator or owner:**

6. **Nəqliyyat vasitəsinin təsviri[1] / Description of vehicle[1]:**

7. **ADR-in 9.1.1.2-ci yarımbəndinə əsasən nəqliyyat vasitəsinin təyinatı (təyinatları)[2] / Vehicle designation(s) according to 9.1.1.2 of ADR[2]:**
EX/II EX/III FL AT MEMU

**8. Aşınmaya davamlı tormoz sistemi[3] / Endurance braking system:[3]**
TYtbiq olunmur / Not applicable
NYqliyyat vasitYsinin ümumi kütləsi üçün kifayət edən, ADR-in 9.2.3.1.2-ci yarımbəndinə uyğun effektivlik______t[4] / The effectiveness according to 9.2.3.1.2 of ADR is sufficient for a total mass of the transport unit of______ t[4]

**9. Quraşdırılmış sisternin (sisternlərin) /nəqliyyat vasitəsi-batareyanın (əgər vardırsa) təsviri / Description of the fixed tank(s)/battery-vehicle (if any):**
9.1. Çənin istehsalçısı / Manufacturer of the tank:
9.2. Çənin/nəqliyyat vasitəsi-batareyanın təsdiqetmə nömrəsi / Approval number of the tank/battery-vehicle:
9.3. Çənin istehsalçısı tərəfindən verilmiş seriya nömrəsi/ nəqliyyat vasitəsi-batareyanın elementlərinin təyinatı / Tank manufacturer’s serial number/ Identification of elements of battery-vehicle:
9.4. İstehsal ili / Year of manufacture:
9.5. ADR-in 4.3.3.1-ci və ya 4.3.4.1-ci yarımbəndlərinə uyğun olaraq sisternin kodu / Tank code according to 4.3.3.1 or 4.3.4.1 of ADR:
9.6. ADR-in 6.8.4-cü yarımbəninə uyğun olaraq TC və TE üzrə xüsusi müddəalar (tətbiq olunursa)[6] / Special provisions TC and TE according to 6.8.4 of ADR (if applicable)[6]:

**10. Daşınmasına icazə verilən təhlükəli yüklər / Dangerous goods authorised for carriage:**
Nəqliyyat vasitəsi 7-ci qrafada qeyd edilmiş təyinatına (təyinatlarına) aid edilmiş təhlükəli yüklərin daşınması üçün şərtlərə cavab verir / The vehicle fulfils the conditions required for the carriage of dangerous goods assigned to the vehicle designation(s) in No.7.
10.1. Nəqliyyat vasitəsi EX/II və ya EX/III təyinatı olduqda[3] / In the case of an EX/II or EX/III vehicle[3]
q1-ci sinif yüklər, uyğunluq qrupu J daxil olmaqla / goods of Class 1 including compatibility group J
q1-ci sinif yüklYr, uyunluq qrupu J istisna olmaqla / goods of Class 1 excluding compatibility group J
10.2. Avtosisternlər/nəqliyyat vasitəsi-batareyalar olduqda[3] / In the case of a tank-vehicle/ battery-vehicle[3]
q yaln1z 9-cu qrafada qeyd edilən istənilən xüsusi müddəalara və sisternin koduna uyğun olaraq icazə verilmiş maddələr daşına bilər[5]
və ya /
only the substances permitted under the tank code and any special provisions specified in No.9 may be carried[5]
or
qyaln1z a_a1dak1 maddYlYr (yükün sinfi, BMT nömrYsi, zərurət olduqda qablaşdırmanın qrupu və yükgöndərmə üzrə adlar qeyd olunmaqla) daşına bilər /
only the following substances (Class, UN number, and if necessary packing group and proper shipping name) may be carried
Gövdənin, altlığın, avadanlığın materialları ilə və daxili qoruyucu üzlüklə (tətbiq olunursa) təhlükəli reaksiyaya girə bilməyən maddələr /
Only substances which are not liable to react dangerously with the materials of the shell, gaskets, equipment and protective linings (if applicable) may be carried

**11. Qeydlər / Remarks:**

**12. Etibarlıdır / Valid until:** Şəhadətnaməni verən təşkilatın möhürü / Stamp of issuing service
Yer, tarix, imza / Place, Date, Signature

1. Nəqliyyat vasitələrinin konstruksiyaları haqqında Birgə Qətnamə (R.E.3) və ya Avropa Şurasının 2007/46/EC Direktivi ilə müəyyən edilmiş mexaniki nəqliyyat vasitələrinin və qoşqularının N və O kateqoriyalarına əsasən.

According to the definitions for power-driven vehicles and for trailers of categories N and O as defined in the Consolidated Resolution on the Construction of Vehicles (R.E.3) or in Directive 2007/46/EC.

2. Lazım olmayanın üstündən xətt çəkməli. Strike out what is not appropriate.

3. Lazım olanı işarələməli. Mark the appropriate.

4. Müvafiq kəmiyyəti göstərməli. 44 t-na bərabər kəmiyyət qeydiyyat sənədində göstərilən “qeydiyyat / istismar üçün icazə verilən maksimum kütləni” məhdudlaşdırmır.

Enter appropriate value. A value of 44 t will not limit the “registration / in-service maximum permissible mass” indicated in the registration document(s).

Xüsusi müddəalar (əgər nəzərdə tutulmuşdursa) daxil olmaqla 4.3.3.1.2-ci və ya 4.3.4.1.2-ci yarımbəndlərində nəzərə alınmış ardıcıllığa uyğun olaraq 9-cu qrafada qeyd olunmuş sistern koduna və ya sisternlərin digər kodlarına aid edilən maddələr.

Substances assigned to the tank code specified in No.9 or to another tank code permitted under the hierarchy in 4.3.3.1.2 or 4.3.4.1.2. taking account of the special provision(s), if any.

Daşınmasına icazə verilən maddələr 10.2-ci qrafada qeyd edildikdə tələb olunmur.

Not required when the authorized substances are listed in No. 10.2.

| **13. Qüvvədəolma müddətinin uzadılması / Extensions of validity** | |
|---|---|
| Qüvvədəolma **müddəti ____ qədər** uzadılmışdır / Validity extended until_____ | **Şəhadətnaməni verən təşkilatın möhürü, yer, tarix, imza /** Stamp of issuing service, place, date, signature: |
| Qüvvədəolma **müddəti ____ qədər** uzadılmışdır / Validity extended until______ | **Şəhadətnaməni verən təşkilatın möhürü, yer, tarix, imza** / Stamp of issuing service, place, date, signature: |

**Qeydlər:**

1. Şəhadətnamənin ölçüləri 210 mm×297 mm olmalıdır.
2. Şəhadətnamə çəhrayı diaqonal zolaqlı ağ rəngdə olmalıdır.
3. Tullantılar üçün vakuum sisterninə malik nəqliyyat vasitəsinin daşınmaya buraxılması haqqında şəhadətnamədə “tullantılar üçün vakuum sisternli nəqliyyat vasitəsi” (həmçinin ingilis dilində “vacum-operated waste tank-vehicle”) qeydi olmalıdır.
4. Aşağıdakı hallarda Şəhadətnamə onu verən təşkilata qaytarılmalıdır:

4.1. nəqliyyat vasitəsinin istismarı başa çatdıqdan sonra;

4.2. nəqliyyat vasitəsi 5-ci qrafada qeyd olunan digər daşıyıcıya, operatora və ya mülkiyyətçiyə verildikdə;

4.3. şəhadətnamənin qüvvədəolma müddəti bitdikdən sonra;

4.4. nəqliyyat vasitəsinin əsas xüsusiyyətlərindən biri və ya bir neçəsi əhəmiyyətli dərəcədə dəyişdikdə.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Leyla Əliyevanın Berlinə işgüzar səfəri



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Beynəlxalq Biomüxtəliflik Günü ərəfəsində Berlinə işgüzar səfəri çərçivəsində Azərbaycan Mədəniyyət Mərkəzində IDEA İB-nin təşkilatçılığı ilə keçirilən "Təbiətə qayıdış: Azərbaycanda zubr populyasiyasının bərpası" adlı tədbirdə iştirak edib.**



Leyla Əliyeva, eləcə də Berlin Zooparkının direktoru Andreas Knirim və Ümumdünya Təbiəti Mühafizə Fondunun Almaniya nümayəndəliyinin konservasiya üzrə müdiri Katrin Samson tədbirin əhəmiyyətindən bəhs edib, ölkəmizdə zubr populyasiyasının bərpası və inkişafı üzrə görülən işlərin vacibliyini iştirakçıların diqqətinə çatdırıblar. Tədbirdə, həmçinin bu sahədə görülən işlərə həsr olunmuş film və fotosərgi nümayiş etdirilib.

Leyla Əliyeva səfər çərçivəsində "Michael Succow" Fondunun təsisçisi Maykl Sukkov, Lissabon Zooparkının Zoologiya və veterinar şöbəsinin müdiri Ruy Bernardino, eləcə də Andreas Knirim və Katrin Samson ilə ayrıca görüşlər keçirib, təbiəti mühafizə, canlı aləmin konservasiyası və bərpası sahələrində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıb. Sonuncu görüş zamanı Bakı və Berlin zooparkları arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Memoranduma əsasən, zooparklar öz aralarında məlumat, bilik və təcrübə mübadiləsi keçirəcək, habelə əməkdaşlar üçün birgə təlimlər təşkil edəcəklər.

Qeyd edək ki, ötən əsrin əvvəllərində ölkəmizdə nəsli kəsilmiş zubr populyasiyasının vəhşi təbiətə reintroduksiyası məqsədilə 2012-ci ildən etibarən IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyinin birgə tərəfdaşlığı çərçivəsində uğurla həyata keçirilməkdə olan layihə nəticəsində hazırda Şahdağ Milli Parkının ərazisində 61 başdan ibarət zubr populyasiyasının bərpasına nail olunub.

# MDB ölkələri təhlükəsizlik orqanlarının birgə əməkdaşlığı

**Mayın 24-də Qırğız Respublikasının paytaxtı Bişkekdə MDB-yə üzv ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 54-cü iclası keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev iştirak edib.**



Beynəlxalq terrorçuluqla və dini ekstremizmlə mübarizə sahəsində məlumat mübadiləsinin aparılması və ölkələrin hüdudlarından kənarda döyüş hazırlığı keçməklə cinayətkar qruplaşmaların tərkibində silahlı münaqişələrdə iştirak edən şəxslərin müəyyən olunaraq fəaliyyətlərinin qarşısının alınması iclasın gündəliyində duran əsas məsələlərdən olub.

Tədbirdə dünyanın geosiyasi müstəvisində müşayiət olunan gərginliklər, mürəkkəb və ziddiyyətli proseslər fonunda beynəlxalq təhlükəsizlik sisteminin yeni təhdidlərlə üz-üzə qaldığı, terror riskinin dəfələrlə artdığı və kibercinayətkarlıq hallarının daha intensiv xarakter aldığı xüsusi vurğulanıb.



Bundan əlavə, MDB məkanında maraqlı qüvvələrin kəşfiyyat-pozuculuq fəaliyyəti, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılığı kimi ciddi narahatlıq doğuran mənfi təzahürlərə qarşı səylərin birləşdirilməsinin və mövcud imkanları səfərbər etməklə birgə effektiv mübarizənin aparılmasının zəruriliyinə də toxunulub.

Tədbirdə mühüm əhəmiyyət kəsb edən məsələlərlə bağlı çıxışlar edilib, ətraflı müzakirələr aparılıb və gələcək əməkdaşlığa dair bir sıra vacib sənədlər imzalanıb.

***XQ***

# Marneulidə istiqlal mücahidinə ehtiram





**Gürcüstanın Marneuli şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümü qeyd olunub. Tədbir Marneulidəki "Azərbaycan Evi"nin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Diasporuna Dəstək Fondunun (ADDF) dəstəyi ilə keçirilib.**

28 May Azərbaycan Respublikasının Müstəqillik Günü ərəfəsində keçirilən mərasimdə Marneuli bələdiyyəsinin üzvləri, Türkiyənin "MAARİF Okulları"nın Gürcüstan nümayəndəliyinin rəhbəri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

"Azərbaycan Evi"nin direktoru Məhəbbət İmanov müsəlman Şərqində ilk dəfə Azərbaycanda respublika yaradılması, AXC-nin qısa vaxt ərzində qazandığı uğurlar barədə ətraflı məlumat verib.

Gürcüstan parlamentinin keçmiş deputatı Mahir Dərziyev bildirib ki, M.Ə.Rəsulzadə və silahdaşları cümhuriyyəti Tbilisidə elan ediblər.

Tədbirdə "MAARİF Okulları"nın Tbilisi nümayəndəliyinin rəhbəri Ali Sedat Aslan, parlamentin keçmiş deputatı Hidayət Hüseynov, Azərbaycan dili və ədəbiyyat müəllimi Fatma Əliyeva, ziyalı Səyyad Xəlilov, yazıçı Əli Abbas və digərləri çıxış ediblər.

***XQ***

# Elektromobillər və "yaşıl" hədəflər

**Dünyada elektrik avtomobillərinə maraq artır. Satılan avtomobillərin 5 faizi onların payına düşür. Amma son vaxtlar "köhnə qitə"də elektromobillərlə bağlı problemlər üzə çıxıb. Məsələn, Almaniya avtomobil istehsalçısı "Mercedes-Benz" 2030-cu ilə qədər tamamilə elektrikli avtomobillərə keçmək barədə qərarını dəyişib və benzinlə işləyən avtomobillərə qayıdır! Bəs yaşıl gündəm – Avropa Komissiyasının (AK) qeyd etdiyi yüksək hədəflər?!**




Qeyd edək ki, AK 2035-ci ildən benzin və dizellə işləyən avtomobillərə qadağa qoyub. Müxtəlif alman avtomobil istehsalçıları daxiliyanma mühərriklərindən qurtulmaq və 2030-cu ildən yalnız elektromobillərin istehsalına keçmək öhdəliyi götürmüşdülər. Bundan sonra "Volkswagen", "Audi" və "Mercedes-Benz" şirkətləri istehsalı genişləndirdilər. 2030-cu ilə qədər Almaniya hökuməti ölkə avtobanlarında 15 milyon elektromobilin (indiki 1,4 milyona qarşı) olacağını vəd etdilər. İndi isə "Mercedes-Benz" qəflətən öz öhdəliyindən imtina edir və benzinlə işləyən daxiliyanma mühərrikli avtomobillərin istehsalına qayıdır. Nə baş verdi? Bunun izahı məşhur "bazar hər şeyi həll edəcək" ifadəsindədir.

Səbəblər müxtəlifdir. Birinci səbəb: Çin bazarı daha ucuz elektrik avtomobilləri ilə doldurub və Avropa məhsullarını rəqabətsiz hala gətirib. İkinci səbəb elektromobillərin qiymətinin benzinlə işləyən avtomobillərə nisbətən daha tez və nəzərəçarpacaq dərəcədə aşağı düşməsidir. "Auto Trader" onlayn avtomobil satış platformasının araşdırması göstərir ki, elektrik avtomobilləri üç il istifadə müddətində dəyərinin yarısını itirir.

Üçüncü səbəb: Batareyaların məhdud ömrüdür. Orta hesabla batareyaların istifadə müddəti təxminən 8 ildir. Bu müddətdən sonra onlar dəyişdirilməlidir. Yeni akkumulyatorun qiyməti bəzi hallarda 40 min avroya çatır.

Digər səbəblər də var. Bu, elektrik avtomobilləri üçün yanacaqdoldurma məntəqələrinin azlığıdır. Şarj aparatları (enerjidoldurma aparatları) ilə bağlı problemlər hələ də qalmaqdadır. Bəzi küçələrdə səkilərə belə aparatlar quraşdırılıb. Lakin yolun kənarında saxlanılan maşınlar elektrik avtomobillərinə şarj aparatından istifadə etməyə imkan vermir.

Bundan başqa, elektromobillərin mühərriklərinin akkumulyatorları və digər mühüm ehtiyat hissələrinin istehsalında daha çox litium və ağır metallardan istifadə olunur. Bu resursların əldə edilməsi isə heç də ekoloji cəhətdən təmiz şəkildə baş vermir.

Eyni zamanda, hazırkı elektromobillərin digər mühərriklərə nisbətən havaya üç dəfə çox radioaktiv tullantılar buraxması da müəyyən edilib. Nəticədə Avropa avtomobil bazarında elektromobillərə maraq azalır, satışı isə hər il aşağı düşür.

Bəs ölkəmizdə elektrik avtomobilləri ilə bağlı vəziyyət necədir? Bu barədə tanınmış mütəxəssis Elməddin Muradlı ilə görüşüb söhbət etdik. O bildirdi ki, Azərbaycanda Avropadan fərqli olaraq elektriklə işləyən avtomobillərə maraq getdikcə artır. Çünki yanacağın, sürtkü yağlarının, ehtiyat hissələrin bahalaşması fonunda elektromobillər insanlar üçün daha cəlbedicidir. Nəzərə almaq lazımdır ki, onlar həm də müasir avtomobillərdir. Yəni istehsal ili yeni olan avtomobillərdir. Yeni avtomobillərdə həm komfort var, həm təhlükəsizlik məsələləri öndədir. Hər il avtomobil istehsalçıları təhlükəsizlik məsələsinə daha çox diqqət ayırırlar.

Ekspertin sözlərinə görə, elektromobillərlə bağlı fikirlər nə qədər haçalansa da, bu sahənin böyük gələcəyə malik olduğu danılmazdır: "Bu gün dünyada elə bir şirkət varmı ki batareyaları daha zərərsiz formada utilizasiya edə bilsin. Hazırda yoxdur. İstənilən halda elektrikli avtomobillərə ümumi yanaşma müsbətdir. Yenə də insanlar ona maraq göstərirlər.

E.Muradlı sonra dedi: – Sadəcə Azərbaycanda şarj aparatları ilə bağlı problemlər var. Enerjidoldurma stansiyaları çox deyil. Bununla bağlı hökumət tərəfindən müvafiq tapşırıqlar verilib. Aidiyyəti qurumlar bunun üzərində işləyirlər. Hesab edirəm ki, bütün yanacaqdoldurma məntəqələrində enerjidoldurma stansiyaları yaradılmalıdır. Bundan başqa, yeni tikililərin həyətində belə stansiyalar quraşdırılmalıdır. Komfortlu bu xidməti də yaratsalar, yaxşı olar".

***P.ƏFƏNDİYEV***
***XQ***

# Xarici ölkələrdə 28 May şənlikləri



## Özbəkistan

**Azərbaycanın Özbəkistandakı səfirliyi və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənddə 28 May Müstəqillik Günü münasibətilə rəsmi qəbul keçirib.**

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev AXC-nin fəaliyyəti və qısa müddət ərzində gördüyü işlər haqqında geniş məlumat verib. Diplomat Cümhuriyyətin gördüyü dövlət quruculuğu işləri haqqında danışıb. O qeyd edib ki, 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa edən Azərbaycan ümummilli lider Heydər Əliyevin apardığı uğurlu siyasət sayəsində dinamik inkişaf yoluna qədəm qoyub. Ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin apardığı islahatların öz uğurlu nəticəsini verdiyini vurğulayan səfir bildirib ki, 30 ilə yaxın işğal altında olan torpaqlarımızı şanlı ordumuz azad edib.

Mərasimdə Azərbaycanın Özbəkistanla dostluq və əməkdaşlığının yüksək səviyyədə olduğu vurğulanıb.

Sonra ölkəmizin qazandığı nailiyyətlər, turizm imkanları, tarixi abidələrini əks etdirən videoçarx nümayiş etdirilib. Qonaqlara Azərbaycan milli mətbəxinin təamları təqdim edilib.




## Pakistan

28 May Müstəqillik Günü münasibətilə Azərbaycanın Pakistandakı səfirliyi də İslamabadda rəsmi qəbul keçirib.

Ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadov Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik respublika olduğunu vurğulayıb, onun şanlı tarixi barədə geniş məlumat verib. O deyib ki, AXC demokratik ənənələrin və milli dövlətçilik tarixinin formalaşmasında mühüm rol oynayıb. AXC-nin hüquqi varisi olan müstəqil Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa edib və öz suverenliyini ulu öndər Heydər Əliyevin sayəsində qoruyub saxlaya bilib. Bu gün Azərbaycanda ulu öndər Heydər Əliyev siyasəti dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə davam etdirilir.

Pakistan ilə Azərbaycan arasında yüksək səviyyəli münasibətlər barədə danışan diplomat həmin əlaqələrin bütün sahələrdə yüksələn xətlə inkişaf etməkdə olduğunu diqqətə çatdırıb.

Pakistan Baş nazirinin İqlim Dəyişiklikləri və Ətraf Mühitin Koordinasiyası üzrə əlaqələndiricisi xanım Romina Xurşid Alam Azərbaycan hökumətini və xalqını Müstəqillik Günü münasibətilə təbrik edib.

Şənlikdə Azərbaycanla bağlı müxtəlif videoçarxlar nümayiş etdirilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd – İslamabad**

# Bakı Türk dünyası kitablarının işığında





**Üç gündür ki, Bakı yenidən böyük kitab bayramı ovqatındadır. Hüseyn Cavid prospektində – Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) önündəki parkda III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı keçirilir.**

Festival Beynəlxalq Türk Müəllifləri Birliyinin (BTMB) təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi (AYB), Milli Məclisin Mədəniyyət komitəsi, TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Akademiyası, TİKA və digər qurumların dəstəyi ilə təşkil olunub. Kitab bayramına türksoylu ölkələrdən çoxsaylı alimlər, qələm adamları, naşirlər də gəliblər. Festivalın hər günü bir ölkəyə – Qırğızıstan, Özbəkistan, Macarıstan, Qazaxıstan, Azərbaycan, Türkiyə, Türkmənistan və Şimali Kipr Türk Respublikasına həsr edilir.

**Açılış mərasimində AYB sədri, Xalq yazıçısı Anar Türk dünyasının sarsılmaz birliyinə, türk dövlətləri arasındakı əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək festivalın önəmini açıqlayaraq dedi:**

– Əsrlər boyu bilik, zəka saxlancı olan kitab insanların kamillik qaynağına, yaxın sirdaşına çevrilib. Cəmiyyətin mənəvi aləminin zənginləşməsində, oxucuların dünyagörüşündə, hərtərəfli inkişafında kitab əvəzsiz rol oynayıb. Bu festivalın da əsas məqsədi iştirakçılar arasında mütaliə mədəniyyəti və oxu vərdişini inkişaf etdirmək, insanların kitaba marağını daha da artırmaqdır. Qardaş türk dövlətlərindən tədbirə qatılan qonaqlar bu festivala ən yaxşı nəşrləri gətirməklə ortaq mənəvi xəzinəyə öz töhfələrini veriblər.

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli festivalın türk dövlətlərinin dostluğunun daha bir təzahürü olduğunu vurğuladı:**

– III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı digərlərindən bir sıra cəhətləri ilə fərqlənir. Builki festival ilk dəfədir ki, Azərbaycanın tam ərazi bütövlüyü şəraitində qeyd edilir. Prezident İlham Əliyevin möhkəm iradəsi ilə 44 günlük Vətən müharibəsində əldə edilmiş Zəfərin işığında və ondan sonra aparılmış uğurlu əməliyyatlar sayəsində qazanılmış tam ərazi bütövlüyü həm Azərbaycan, həm də Türk dünyası üçün böyük əhəmiyyətə malik tarixi hadisədir. Ölkəmizin tam ərazi bütövlüyü şəraitində keçirilən bütün tədbirlər, eləcə də bugünkü festival qarşımızda yeni dövrün açılmasına kitabın, mədəniyyətin və elmin də xidmət edəcəyinə inamı artırır.

Prezident İlham Əliyevin andiçmə mərasimindəki çıxışı zamanı Türk dünyası ilə əməkdaşlığı dövlət siyasətində əsas prioritet kimi müəyyənləşdirdiyini və Türk Dövlətləri Təşkilatını vahid bir ailə kimi təsvir etdiyini xatırladan akademik bildirdi ki, hazırkı mərhələ Türk dünyası ilə inteqrasiyanın daha da genişlənməsini zəruri edir. Elə bu festival da mənəvi birgəliyə sanballı töhfədir.

Əvvəlki analoji festivallarda olduğu kimi, yenə də şair və yazıçılarımız ədəbi əsərlərini, alimlərimiz elmi nailiyyətlərini, naşirlərimiz çap məhsullarını Türk dünyasına daha asan çatdırmaq imkanı əldə ediblər və eyni zamanda, qardaş ölkələrin elmi-mədəni, ədəbi mühitində gedən prosesləri yaxından izləyə bilirlər. Mərasimdəki digər çıxışlarda kitab bayramı ölkənin ziyalı mühitinin daha da inkişaf etdirilməsi baxımından əlamətdar hadisə kimi dəyərləndirildi.

**Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov çıxışına Türk qövmlərinin ədəbi zənginliyindən danışmaqla başladı və sonra dedi:**

– Vaxtilə ulu öndər Heydər Əliyevin Türk Dövlətləri Başçılarının II Zirvə Toplantısında çıxışı zamanı səsləndirdiyi "Bizim mədəni birliyimizi siyasi birliyimiz tamamlamaqdadır", – sözlərini xatırlayırıq. Ötən illər ərzində Türk dünyasının möhkəm siyasi birliyi meydana gəlib, ədəbiyyat və kitab da xalqlarımızın birliyinin təməllərindəndir. Odur ki, ictimai-siyasi və ədəbi yaradıcılıq baxımından ciddi əsaslara dayanan festivalın işinə uğurlar diləyirəm.

Mərasimdə Beynəlxalq Türk Akademiyasının təmsilçisi Əbülfəz Süleymanlı, TÜRKSOY-un Azərbaycan üzrə nümayəndəsi Elçin Qafarlı, TİKA Bakı proqram koordinatoru Hayrettin Özçelik, Türkiyənin Azərbaycandakı səfirliyinin Mədəniyyət və tanıtma müşaviri Muhittin Macit, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı da böyük söz bayramı olan bu gərəkli festivalın həm də gənc nəslin Türk dünyasının böyük şəxsiyyətlərini tanımasına kömək edəcəyini vurğuladılar.

Sonra festival ədəbi-bədii kompozisiyalarla davam etdirildi. Ardınca AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Asif Rüstəmlinin moderatorluğu ilə AYB-nin 90 illiyinə həsr edilmiş panel başlandı. Maraqlı çıxışlar fəal müzakirələrlə davam etdi.

Qeyd edək ki, festivalda şeir saatlarına, müzakirələrə, kitab təqdimatlarına start verilib. Mayın 31-dək davam edəcək kitab bayramı günlərində ədəbi-bədii konfranslar, görkəmli yazarların yubileylərinə həsr olunan tədbirlər, konsert proqramları da təşkil olunacaq.

***Əli ƏLİYEV***
***XQ***

İlyas Əfəndiyev –110

# Azərbaycan ədəbiyyatının boyçiçəyi

**Universitetə qəbul imtahanında "Ən çox sevdiyim bədii əsər" mövzusunu seçmiş və Xalq yazıçısı İlyas Əfəndiyevin "Dağlar arxasında üç dost" romanından bəhs etmişdim. Yazdığım inşanın "əla" qiymətləndirilməsini bir kənara qoyaraq demək istəyirəm ki, bu əsər, həqiqətən də, müasir Azərbaycan nəsrinin yüksək bədii-estetik səviyyəli nümunələrindən biri kimi oxucular arasında böyük şöhrət qazanmışdı. Mənsə sevinirdim ki, universitetə qəbul edilməyimdə "Dağlar arxasında üç dost"un da rolu olub. Elə buna görə sonralar İlyas Əfəndiyevin yaradıcılıq məhsullarına daha böyük maraq göstərdim.**



XX əsr Azərbaycan ədəbiyyatının böyük bir mərhələsi unudulmaz İlyas Əfəndiyevin adı ilə bağlıdır. 1914-cü il mayın 26-da Füzuli (keçmiş Qaryagin) şəhərində anadan olan İlyas Əfəndiyev 3 oktyabr 1996-cı ildə Bakıda dünyasını dəyişsə də, ruhən, mənən həmişə bizimlədir. Böyük nasir və dramaturqun ömür və sənət yolunun davamçısı Elçin bu gerçəyi belə ifadə edib: "1996-cı il. 3 oktyabr... Bu tarixdən sonra İlyas Əfəndiyevin ikinci ömrü başlayır."

İlyas Əfəndiyev, sözün həqiqi mənasında, ədəbiyyatımızın müasir klassikidir. O, bir tərəfdən, gözəl romanlar, povestlər, hekayələr yazırdısa, digər tərəfdən də Azərbaycan teatrına bir-birindən maraqlı səhnə əsərləri bəxş edirdi. Ədibin sənət irsi ilə ətraflı tanış olduqca heyrətlənməyə bilmirsən. İlyas Əfəndiyev nasirliyi, dramaturqluğu ilə yanaşı, həm də ədəbi görüşləri ilə seçilən obyektiv bir tənqidçi olub.

Həyatın ziddiyyətləri içərisində yazıçı mənini qoruya bilən, məramını dəyişməyən, həqiqətə sadiqliyi və qəlb böyüklüyü ilə seçilən bir şəxsiyyət kimi tanıdığımız İlyas Əfəndiyev Azərbaycanda, bəlkə də, keçmiş ittifaqda yeganə ədiblərdən idi ki, Kommunist Partiyasının üzvü deyildi. Onun yaradıcılığı və şəxsiyyəti haqqında ədəbiyyatşünaslar, qələm dostları çoxlu məqalələr yazıb, əsərlərinin bədii məziyyətlərini, insani keyfiyyətlərini ətraflı işıqlandırıblar. Əməkdar jurnalist Flora Xəlilzadənin də İlyas Əfəndiyev mövzusunda dəyərli yazıları daim maraq doğurur. Xalq yazıçısının yubileyi ərəfəsində həmkarımdan bu barədə danışmasını xahiş etdim.

– Orta məktəbdən üzübəri İlyas Əfəndiyevin əsərlərini müntəzəm oxuyuram – deyə Flora xanım söhbətə başladı. – Elə əsəri var ki, dəfələrlə mütaliə etmişəm, həmişə də yeni bir anlatma, pünhan bir mətləblə rastlaşmışam. İlyas Əfəndiyevin əsərlərini diqqətlə oxuduqda onu yazıçıdan əlavə, tarixçi, coğrafiyaçı, salnaməçi kimi də dəyərləndirmək olur.

Tanınmış tənqidçi Yaşar Qarayev yazırdı: "Azərbaycan tarixi barədə klassik sənədlər – yeddi "Qarabağnamə" var. Bütünlükdə, İlyas Əfəndiyevin yaradıcılığını mən 8-ci "Qarabağnamə" hesab edirəm". Mənim düşüncəmə görə, Qarabağ canlı bir varlıqdır. Onun düşünən beyni Füzuli, vuran əli Ağdam, döyünən ürəyi Şuşadır. Bu mənada Qarabağ İlyas Əfəndiyev yaradıcılığında baş mövzudur. Qarabağın ötən günlərini vərəqləmək üçün bu müəllifi diqqətlə oxumaq kifayət edər ki, bir çox mətləblərdən hali olasan. Bütün müqəddəs hissləri, könül titrədən xatirələri, həyəcanları Qarabağla bağlı idi. Şuşa isə ürəyinin sarı simiydi.

Valideynləri Məhəmməd bəylə Bilqeyis xanımın 7 övladı olub: İlyas, Məhbub, Mustafa, Tofiq, Məhluqə, Arif, Nazihə. Tacir Məhəmmədin Füzulidə müxtəlif mallar satılan doqquz dükanı, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə, Ağcabədidə qumaş dükanları, Bakıda, Həştərxanda, Vladiqafqazda, Tehranda və Təbrizdə şərikləri vardı. Təəssüf ki, XI ordu Azərbaycanı işğal edəndən sonra bolşeviklər və onların dəmtutanları onun mülklərini, bütün varidatını, hətta sonuncu əmlakını— ailəsinin sığındığı daşdan tikilmiş ikimərtəbəli evini də əlindən alıblar. O illərdə ailənin düçar olduğu məşəqqətlər barəsində İlyas Əfəndiyevin bir çox əsərlərində, müsahibələrində söz açılıb. İlyas Əfəndiyevin ata, ana tərəfi, yaxın qohumları hamılıqla sovet hakimiyyətinin hər cür acılıqlarını yaşayıblar.

Müsahibim daha sonra dedi:

– İlyas Əfəndiyevin vəfatından sonra çapdan çıxmış "Seçilmiş əsərləri"nin 7 cildliyini son vaxtlar yenidən vərəqlədim. Hətta bəzi roman və hekayələrini, xatirələrini təkrar oxumaqdan böyük zövq aldım. Həqiqətən də o, əbədiyaşar əsərlərə imza atıb. Bu əsərlər zamanın və quruluşun diktəsinə boyun əyməklə yazılmayıb. Yazıçının Şuşa ilə bağlı xatirələri məni daha çox təsirləndirdi, hətta kövrəltdi. Uşaqlıq illərinə, soy-kökünə dərindən bağlı olan yazıçının qeyri-adi yaddaşına bir daha heyran oldum. Bu yerdə xalq yazıçısı Mirzə İbrahimovun səlis söylədiyi fikirləri ürəyimdən xəbər verdi: "Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir".

İlyas Əfəndiyev ədəbiyyata "Kənddən məktublar" (1939) adlı hekayələr kitabı ilə gəlib. 57 illik yaradıcılığı ərzində 6 roman, 47 hekayə, saysız- hesabsız oçerk, məqalə, rəy və xatirələr yazıb. Yarım əsrdən artıq bir zaman kəsiyində o, aparıcı dramaturq kimi Akademik Milli Dram Teatrının repertuar ağırlığını üzərinə götürüb. Onun bu teatrın səhnəsində 19 pyesi tamaşaya qoyulub. 1944-cü ildə "İntizar"la başlanan debüt 1996-cı ildə "Hökmdar və qızı" pyesi ilə tarixə çevrilib. Lakin sonuncu əsər səhnəyə qoyulanda İlyas Əfəndiyev onun tamaşasında iştirak edə bilmədi. Bütün bu illər ərzində yuxarıda dediyimiz kimi, Qarabağ onun yaradıcılığının nəqəratı idi.

İlyas Əfəndiyev müstəqil Azərbaycanın dövlət ordenini – "Şöhrət"i alan ilk yazıçıdır. Sovet dövründə mükafatları çox olmuşdu. Amma onun ən çox dəyərləndirdiyi, sevə-sevə qarşıladığı, əzizlədiyi mükafat məhz müstəqillik dövrünün "Şöhrət" ordeni oldu. İllər boyu qəlbini əzən, duyğularını pərən-pərən edən, yaradıcılığında əks olunan həsrətinə son qoyuldu. Varlığı qədər sevdiyi məmləkəti hürriyyətinə qovuşdu.

Böyük söz ustası 1964-cü ildə yazdığı "Sən həmişə mənimləsən" pyesinin müzakirəsi zamanı belə demişdi: "Qarabağ dağlarında qəribə ətri olan bir çiçək görmüşdüm. Onu qoxlayanda adama elə gəlirdi ki, üfüqlər nəhayətsiz dərəcədə genişlənir. Mavi səma ucu-bucağı olmayan əsrarəngiz bir ümmana çevrilir. O gülün ətrində zərif bir sərtlik də var idi. Mən çiçəyin adını soruşdum. Öyrəndim ki, buna bəzi yerlərdə "boyçiçəyi", bəzi yerlərdə də "boxçagülü" deyirlər. Boyçiçəyini gəlinlər dərib toy paltarlarının arasına qoyurlar. İllər keçir, çiçək qupquru quruyur, amma yenə də öz ətrini itirmir. Elə bil indicə dərmisən".

Qəribədir, bu sözləri, sanki böyük yazıçı öz yaradıcılığı barədə deyib. Həqiqətən, İlyas Əfəndiyev yaradıcılığı Azərbaycan ədəbiyyatının boyçiçəyidir. Həmişə ətirli, solmaz və bihuşedici çiçəyi...

***Ə.DOSTƏLİ***
***XQ***

# Türkiyəli deputatlar Ədəbiyyat Muzeyində

**Türkiyə Böyük Millət Məclisinin Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmud Özer və komissiyanın üzvləri Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət ediblər.**



Nümayəndə heyətini muzeyin direktoru, Milli Məclisin deputatı, akademik Rafael Hüseynov qarşılayaraq onları muzeyin ekspozisiya zalları ilə tanış edib, Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələri və türkdilli xalqların qədim yazılı abidələri haqqında ətraflı məlumatlandırıb. Qonaqlar muzeyin zəngin ekspozisiyasını maraqla seyr ediblər. Sonra Rafael Hüseynov türkiyəli nümayəndələri muzeyin İstiqlal zalı ilə tanış edib, onlara Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının bu məkanda öz iclas və görüşlərini keçirdiklərini və bu möhtəşəm salonun onların əziz xatirəsinə görə "İstiqlal zalı" adlandırıldığını bidirib.

Türkiyə Böyük Millət Məclisinin komissiya sədri Mahmud Özer Azərbaycan və Türkiyə arasında dostluq əlaqələrinin hər gün daha da möhkəmlənməsindən danışaraq iki qardaş ölkəni ortaq ədəbi-mədəni dəyərlərin birləşdirdiyini vurğulayıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Qarabağ həqiqətlərinə ayna tutan kitablar

**Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyində Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, professor Namiq Əliyevin kitablarının təqdimatı keçirildi.**



Mərasimdə "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli Namiq Əliyevin ordu quruculuğunda, xidmət nizamnamələrinin hazırlanmasında fəal iştirakını vurğuladı. Namiq müəllimin Gürcüstanda və Moldovada ölkəmizin səfiri olarkən hər zaman Azərbaycanı yüksək səviyyədə təmsil etdiyi xatırlandı. Onun beynəlxalq münasibətlər və xarici siyasət haqqında kitablarından ətraflı bəhs olundu.

Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev çıxışı zamanı qeyd etdi ki, həmin kitablar təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də nümayiş və təbliğ edilməlidir. Çünki bu çalışmalarda həm hüquqi aspektlər, həm də tarixi faktlar öz əksini tapıb. Fəlsəfə doktoru, politoloq İlqar Vəlizadə, onun həmkarı Zaur Məmmədov, ehtiyatda olan zabitlər Həsən Əmirov, Şura Musayev, Bəhram Şeydayev, İlham Qaibzadə və Anar Məmmədov kitablar və müəllif haqqında fikirlərini bölüşdülər.

Namiq Əliyev çıxışlara görə minnətdarlıq edərək bildirdi ki, Qarabağ mövzusu ilə bağlı 40-dan artıq kitab təqdim olunub. Onların arasında 17 ölkədə 13 dildə çap olunanları da var və hər biri isə Azərbaycan həqiqətlərini əks etdirir.

Tədbirin sonunda professor Namiq Əliyevə "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin, eləcə də "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin mükafatları verildi.

***XQ***

# İstiqlal melodiyalı konsertlər

**Danimarka ilə İsveçin paytaxtları Kopenhagen və Stokholmda 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə musiqili gecələr keçirilib.**



Konsertlərin əvvəlində ölkəmizin Danimarka, İsveç, Norveç və Finlandiyadakı səfiri Zaur Əhmədov çıxış edərək Azərbaycanın keçdiyi inkişaf yolu, Avropa dövlətləri ilə ikitərəfli əlaqələrin inkişafı, bu ilin noyabr ayında ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) haqqında söz açıb. Danimarka Xarici İşlər Nazirliyinin Avropa qonşuluğu üzrə direktoru Henrik Vinter Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərini çatdırıb.

Sonra Əməkdar artist, tanınmış pianoçu Emil Əfrasiyab, Əməkdar artist İsgəndər Ələsgərov və Elvin Nəbiyevdən ibarət caz triosu konsert verib. Onların çıxışları böyük maraqla izlənib.

Tədbirdə yerli dövlət qurumları və ictimaiyyətin nümayəndələri, diplomatik korpusun təmsilçiləri, Azərbaycan və türk diasporunun üzvləri iştirak ediblər.

***XQ***

# 32 ailə də doğma Şuşasına qovuşdu

**Şuşa şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən 32 ailə olmaqla, 125 nəfər Şuşa sakini doğma yurduna qovuşub.**



Açarların təqdim edilməsi mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Bununla da, Şuşa şəhərində 90 ailənin, yəni 349 nəfərin məskunlaşması təmin edilib.

***XQ***

Könül dünyamız

# Özünüz yatın, vicdanınızı oyaq saxlayın!

**Allah Qabil müəllimə rəhmət eləsin! Onun poetik fikirləri daim aydın və sərrast idi. Məşhur “Müsibət oluruq biz, səhv düşəndə yerimiz” şeiri (1969-cu ildə yazılıb və tezliklə dillər əzbəri olub) bir neçə benddən ibarət olsa da, məzmun və məna baxımından çox güclüdür. Çünki şeirdə böyük həyat həqiqəti və hayqırtı var. Bir fikir verin:**



**Ağ biləklər, gül əllər**
**Tarlada qabar.**
**Bir qeyrətsiz yekəpər**
**Qızılgül satar.**
**Qeyrətsiz oluruq biz,**
**Səhv düşəndə yerimiz.**

Fikrimizcə, şeirin kökündə insanları əməllərinə və davranışlarına görə fərqləndirən vicdan məsələsi dayanır. Çünki vicdan elə bir mənəvi gücdür ki, əslində, hər bir insanın dəyəri onunla ölçülür. El arasında arabir belə ifadələr işlənir: “filankəs vicdanını itirib”, “sənin vicdanın nə vaxt oyanacaq?”, “vicdansızın balası” və sair. Demək, bizim vicdanımız əslində, gücümüz, imanımız, etibarımız, qeyrət göstəricimiz və kimliyimizdir.

Vicdanının səsinə qulaq asanlar həyatda doğru yol tutur, həqiqi mənada, azad yaşamağa, gözəl əməllər sahibi olmağa çalışırlar.

Dinimizə görə, vicdan Allahın insana verdiyi ilham, qüvvətdir və hər kəs etdiyi naqis əməllərə görə axirətdə cavab verəcək, haqq-hesabı da ağır olacaq.

Vicdan haqda bir rəvayəti də danışım, söhbəti yekunlaşdıraq:

Bir gün Sokrat tələbələri ilə söhbət edirdi. Bu vaxt bir nəfər içəri girib onlara deyir:

– İnsan haqqında çox danışmağa ehtiyac yoxdur. Mən hər bir insanın üzünə baxıb onun xarakterini deyə bilərəm.

Sokrat dillənir:

– Onda məndən başla, necə adam olduğumu söylə!

Kişi deyir:

– Sənin burun dəliklərin dodağına görə çox genişdir. Deməli, səndə tündməcazlıq var. Alnın genişdir. Deməli, acgözsən. Çənən dik başlayır və sivri şəkildə bitir. Deməli, səbirsizsən. Qolların uzundur. Deməli, pulu çox sevirsən. Gözlərin çox yastı və böyükdür. Deməli, sən həmişə dövlətə qarşı çıxan, insanları üsyana təhrik edən, təxribatçı bir adamsan.

Bu sözlər Sokratın tələbələrini çox narazı salır. Ancaq Sokrat çağırılmamış qonağa təşəkkür edib onu mehribanlıqla yola salır.

Tələbələri Sokratdan soruşurlar:

– Bu adam sizin haqqınızda ancaq mənfi şeyləri söylədi, amma siz ona təşəkkür edib hörmətlə yola saldınız. Başa düşmədik, siz onun dedikləri ilə razısınız?

– Adamın dediyi bütün mənfi keyfiyyətlər az, ya çox dərəcədə məndə var. Buna görə də ona bir şey demədim. Ancaq o, bir şeyi deməyi unutdu. Mənim, hər insanda olduğu kimi, mənfi keyfiyyətlərimlə yanaşı, vicdanım da var. Əgər o mənim ürəyimə də baxa bilsəydi, onda vicdanımın da olduğunu görərdi. Vicdan isə elə bir qüvvədir ki, insanın təbiətində olan bütün mənfi keyfiyyətlərə qalib gəlir və ən əsası, insanı onların əsiri olmaqdan qoruyur...

Biz kimsəyə vicdan dərsi vermək fikrindən uzağıq. Amma ağıllı adamlardan birinin təbirincə desək, əgər gecələr rahat yatmaq istəyirsinizsə, özünüzlə yatağa təmiz vicdan aparın. Özünüz yuxulayın, ancaq vicdanınızı daim oyaq saxlayın. Çünki vicdan oyaq olanda çox müşkülləri həll etmək olur.

*Səməd MƏLİKZADƏ,*
*şair-publisist*

# Ləğv prosesində olan “Bank of Azerbaijan” ASC-nin kreditorlarının nəzərinə!

Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan "Bank of Azerbaijan" ASC-nin kreditorlarının diqqətinə çatdırır ki, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 82.1.5-ci maddəsinə əsasən bankın müflis elan olunmasına dair məhkəmə qərarının qəbul edildiyi tarixdən əvvəlki altı aydan çox olmayan dövr üçün ödənilməli müavinətlərin, əmək haqlarının verilməsi haqqında bankın işçilərinin və keçmiş işçilərinin tələbləri üzrə ödəniş **29 may 2024-cü il** tarixdən etibarən başlanacaqdır.

Tələblərin ödənişi nağdsız qaydada həyata keçiriləcəkdir.

Kreditorlardan xahiş olunur ki, tələblərin ödənişi ilə bağlı Əmanətlərin Sığortalanması Fonduna müvafiq sənədləri (bank rekvizitləri əlavə edilməklə) təqdim etməklə müraciət etsinlər.

***Ünvan: Bakı şəhəri, Babək prospekti 16, ƏSF-nin inzibati binası.***

***Qaynar xətt əlaqə nömrəsi: 941***




# “Bank of Azerbaijan” ASC-nin ləğv prosesinin tamamlanması istiqamətində növbəti mühüm mərhələ başa çatıb

AZƏRBAYCAN ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU

Əmanətlərin Sığortalanması Fondu əmanətlərin sığortalanması məqsədləri üçün 2007-ci ildə yaradılmış və fəaliyyətə başlamışdır. “Banklar haqqında” Azərbaycan Respublikası Qanununa əsasən 2017-ci ildə ƏSF-yə əlavə olaraq bankların ləğvetmə funksiyası həvalə edilmişdir. Sözügedən funksiyanın həvalə edilməsi ilə fond ləğv prosesində olan bankların aktivlərinin idarə edilməsini həyata keçirərək bankların digər şəxslər qarşısında olan öhdəliklərinin icra edilməsi və qalan aktivlərin bank səhmdarları arasında bölüşdürülərək ləğv prosesinin mümkün qədər sürətlə və effektiv şəklildə başa çatdırılması vəzifəsini də yerinə yetirməyə başlamışdır.

2024-cü ilin əvvəlində fondun ləğvetməsində 23 bank olmuş, onlardan 6-sı üzrə bu prosesin başlanması 2020-ci ildən sonrakı dövrə təsadüf etmişdir. Fondun ləğvedici funksiyasını həyata keçirməyə başladığı dövr ərzində ilk dəfə bu il ləğv prosesində olan 2 bankın – “Azərbaycan Kredit Bankı” ASC və “Borçalı” KB-nin ləğv prosesinin yekunlaşdırılması ilə bağlı işlər başa çatdırılmışdır. Ləğv prosesində olan 4 bank - "Royalbank" ASC, "Qafqaz İnkişaf Bankı" ASC, "Gəncəbank" ASC və "Dəmirbank" ASC üzrə isə sonuncu növbədə olan təminatsız kreditor tələblərinin ödənilməsi icra edilir. Əlavə olaraq qeyd edək ki, 2020-ci ildən hazırkı vaxtadək olan dövr ərzində sığorta hadisəsi baş vermiş 6 bankın əmanətçilərinə **893.598.111 manat** ekvivalentində kompensasiya, fonda ləğvetmə funksiyasının həvalə edildiyi dövr ərzində isə ləğv prosesində olan bankların öhdəlikləri üzrə sonuncu növbəlikdə olan kreditorlarına ümumilikdə **32.236.851 manat** məbləğində vəsait ödənilmişdir və bu proses davam etməkdədir.

Qanunvericiliklə bankların ləğv prosesinin bitməsi üçün konkret müddət müəyyən edilməsə də fond tərəfindən qanunvericiliyin bu prosesə kompleks yanaşması nəzərə alınaraq ləğvetmənin mümkün qədər sürətli və effektiv şəkildə başa çatdırılması prinsipi əsas götürülməklə aparılmış məqsədyönlü iş və uğurlu fəaliyyət nəticəsində daha bir bank - “Bank of Azerbaijan” ASC-nin ləğv prosesinin tamamlanması istiqamətində növbəti mühüm mərhələ başa vurulmuşdur.

Məlumat üçün qeyd edək ki, “Bank of Azerbaijan” ASC 1 fevral 2016-cı il tarixli məhkəmə qərarı ilə müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu bankın ləğvedicisi təyin edilmişdir. Əmanətlərin Sığortalanması Fondu tərəfindən həmin bankın qorunan əmanətçilərinə **24.206.716,38 manat** məbləğində kompensasiya ödənişi həyata keçirilmişdir.

Yuxarıda qeyd edilənlərin davamı olaraq bildiririk ki, Ləğvedici tərəfindən ləğv prosesinin sürətli və effektiv şəkildə həyata keçirilməsi istiqamətində aparılmış işlərin və görülmüş tədbirlərin nəticəsi olaraq artıq “Bank of Azerbaijan” ASC üzrə “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 82-ci maddəsi ilə nəzərdə tutulmuş ödənişlərin ardıcıllığına əsasən, ilk növbədə, fondun reqres hüququ üzrə tələblərinin ödənilməsi tamamlanmış və növbəti ödəniş mərhələsinə keçilmişdir.

**29 may 2024-cü il** tarixdən başlayaraq “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 82.1.5-ci maddəsinin tələbinə uyğun olaraq növbəti mərhələ üzrə – bankın müflis elan olunmasına dair məhkəmə qərarının qəbul edildiyi tarixdən əvvəlki altı aydan çox olmayan dövr üçün ödənilməli müavinətlərin, əmək haqlarının verilməsi haqqında bankın işçilərinin və keçmiş işçilərinin tələbləri üzrə ödənişlərin həyata keçirilməsinə başlanılacaqdır.

Bölgələrdə özfəaliyyət

**Azərbaycan milli musiqi sənətinin inkişafında nəfəsli alətlərin xüsusi yeri var. Onların ən çox yayılmış növlərindən biri isə zurnadır. Uzun əsrlər boyu toylarda, milli güləş yarışlarında, digər el şənliklərində sazla yanaşı, qara zurnada el havaları, milli rəqslərimiz şövqlə ifa olunub. Bunlar xalq tərəfindən sevilib və bu gün də sevilir.**

# “Çıraqqala”nın sənət şöləsi

## Şabranda xalq musiqisi ənənələri sevgi ilə yaşadılır

1956-cı ildə Şabranda yaradılan “Çıraqqala” zurnaçılar ansamblı da məhz bu ənənənin davamı kimi meydana gəlib. Ansambl Əməkdar mədəniyyət işçisi, məşhur zurna ifaçısı, mərhum Nurağa Rəhmanov tərəfindən təşkil edilmişdi. Yarandığı ilk vaxtlardan ansamblın tərkibinə Nurağa Rəhmanovla yanaşı, tanınmış zurna ifaçıları Ağası Ağasızadə, Saməddin Vahabov, Sabir Səfərov, Əhməd Ağasıyev, Ömər Əkbərov, nağaraçalan Əlibala Mürsəlov kimi sənətkarlar daxil olublar.

Təqdirəlayiq haldır ki, Şabran Rayon Mədəniyyət Evinin “Çıraqqala” ansamlı milli musiqimizin sənət ənənələrini bu gün də uğurla davam etdirir. 2000-ci ildən “Çıraqqala” Xalq kollektivinə artıq Rasim Ağasızadə rəhbərlik edir. Maraqlıdır ki, Rasim Ağasızadə “Çıraqqala”nın yaradıcılarından biri, tanınmış el sənətkarı, 12 yaşından ömrünün sonuna qədər bu kollektivdə çalışan Ağası Ağasızadənin oğludur.

R.Ağasızadə kollektivə rəhbərlik etdiyi uzun illər ərzində ansamblın şöhrətini qoruyub saxlamağı bacarıb və onun uğurlarını davam etdirib. Məhz bu xidmətlərinə görə ölkə Prezidentinin 2017-ci il 15 sentyabr tarixli sərəncamı ilə Rasim Ağasızadəyə “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilib.



N.Rəhmanovun rəhbərlik etdiyi peşəkar ansambl ilk gündən böyük uğurlara imza atıb. Fəaliyyətinin bir ili tamam olanda – 1957-ci ildə ansambl II Respublika Festivalının laureatı adını qazanıb. 1958-ci ildə Bakı şəhərində keçirilən özfəaliyyət kollektivlərinin respublika baxışında isə qalib adına layiq görülüb. 1965-ci ildə Moldovada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti həftəsində uğurla çıxış edib. Ansamblın Türkiyədə keçirilən musiqi folklor festivalındakı çıxışı böyük coşqu ilə qarşılanıb. 1971-ci ildə Moskvada keçmiş SSRİ Xalq Nailiyyətləri Sərgisində “Çıraqqala”nın çıxışı münsiflər heyəti tərəfindən xüsusi diplom və fəxri fərmanla mükafatlandırılıb.

1973-1986-cı illərdə ansambl respublika və ümumittifaq xalq yaradıcılığı, musiqi, folklor, “Xarıbülbül” muğam festivallarında çox sayda nümunəvi çıxışlar edib. 1987-ci ildə isə “Xalq musiqi yaradıcılığının inkişafındakı xidmətlərinə və milli musiqimizin təbliğində qazandığı uğurlara görə” “Çıraqqala” ansamblına “Xalq kollektivi” adı verilib.

Ansamblın sədası hətta keçmiş ittifaq hüdudlarını da aşıb keçmişdi. 1988-ci ildə “Çıraqqala” zurnaçılar ansamblı Hindistanda keçirilən folklor festivalında Azərbaycanı uğurla təmsil edib. Həmin illərdə nağara ifaçılığında ansamblın üzvü Əlibala Mürsəlov respublikada ulduz kimi parlayırdı. Hətta nağarada çubuqla uğurlu ifasına görə o, respublika müsabiqəsində I yerə layiq görülmüşdü.

Respublika Mədəniyyət Nazirliyi və Elmi Metodiki Mərkəzi tərəfindən “Çıraqqala” Xalq kollektivi haqqında “Folklor nümunələrimiz” adlı film hazırlanaraq kompakt diskə köçürülüb. Bundan başqa, ansamblın fəaliyyətinə həsr olunmuş sənədli film çəkilib, respublikamızın televiziya kanallarında maraqlı verilişlər hazırlanıb. Bu yaxınlarda ansambl Şəki şəhərində keçirilən “İpək yolu” beynəlxalq multikultural festivalında fəal iştirakına görə fəxri fərmanla təltif olunub.

“Çıraqqala” ansamblı ənənəvi olaraq Bakı şəhərində keçirilən Novruz bayramı şənliklərində və folklor festivallarında həmişə fəal çıxış edir. Hazırda ansamblın repertuarında “Dəvəçi rəqsi”, “Dəvəçi baharı”, “Şabran təranələri”, “Cəngi”, “Dədə Koroğlu”, “Qəhrəmani”, “Şabran yallısı”, “Dədə Ağası”, “Köçəri” və digər rəqs musiqiləri, eləcə də bir çox bəstəkar və xalq mahnıları yer alır.

Az bir vaxtdan sonra 70 yaşını qeyd edəcək ansamblın kollektivi musiqiyə olan sevgisi, zəhmət və əzmkarlığı ilə “Xalq kollektivi” adını şərəf və ləyaqətlə daşıyır, uğur qazanmağa davam edir.

***Zakir BAYRAMLI,***
***şair-publisist***

**Məşhur bir deyim var: “Hər cür müqayisə qüsurludur”. Həmin fraza ilə nə dərəcədə əlaqəli olduğunu deyə biməsəm də, mən ayları daha çox hansısa bir meyvə ağacı ilə müqayisə edirəm. Məsələn, aprel deyəndə nədənsə, ilk növbədə, gözlərim önünə alça, iyun deyəndə tut ağacı gəlir.**

# Gilas ağacının “nəğmə dərsi”



Həmin silsiləni davam etdirməli olsaq, yəqin ki, belə bir ardıcıllıq alınar: iyul – ərik, avqust – zoğal, sentyabr – əncir, oktyabr – qoz-fındıq, noyabr – heyva. Təbii ki, bu müqayisə həmin meyvələrin yetişmə ardıcıllığı ilə bağlıdır. Mayın ılıq havası duyulanda, nədənsə, gözümün qabağına, ilk növbədə, barlı budaqlarından qızılı-sarı rəngli meyvələr sallanan gilas ağacı gəlir. Əslində, gilasın meyvələrinin tam yetişən dövrü iyun ayına düşür. Lakin il faraş gələndə mayın axırıncı ongünlüyündə meyvələri təzə-təzə dənzərən gilas ağacı quşları başına yığır. Yanaqları allanan gilas ağacının üstündə sığırçınların, sərçələrin “nəğmə dərsi” başlayır. Hərdən mənə elə gəlir ki, günəşin qızılı şəfəqləri altında bərq vuran üstü meyvələrlə dolu gilas ağacı mayın simvoldur.

Bəlkə də mənim gilas ağacına olan sevgim “gilas vaxtı”– mayda doğulmağımla da bağlıdır. Gilasın barlı budaqlarının aynabəndimizin pəncərələrindən içəri boylandığı həmin günlərdə qızılca çıxardığım da yadımdadır. Bəlkə də həmin təəssüratın nəticəsidir ki, mənim nəzərimdə gilas ağacı qızdırmalı adama bənzəyir. Amma kimsə də deyə bilər ki, gilas yetişəndə dağdan təzəcə enmiş lalə yanaqlı gözəl bir qızın yanaqlarını xatırladır. Onun meyvəsini utandığından pörtən, həyadan rəng verib rəng alan gəlinə bənzədənlər də haqlıdırlar...

Bar vaxtı gilas ağacının bəxtəvər çağlarıdır – ləlləkləri quşlarla, budaqları bar toplayanlarla, əl-ətəyi qız-gəlinlə dolu olur. Gilasın budaqları kövrək və sınandır, qanad-dan-qanada keçəndə gərək ehtiyatlı olasan. Gilasın dadlı və şirin meyvələri ağzının dadını bilən heç kəsi biganə qoymur. Ondan gözəl mürəbbə, konserv və kompot hazırlayırlar. Gilas qəbizlik və öskürək zamanı çox faydalıdır. Arıqlamaq istəyənlərə gilas yemək məsləhət görülür. Gilasın saplağını dəmləyib içmək sidikqovucu kimi müsbət təsir göstərir.

Gilas ağacının ömrü az olur. Amma ağac quruyanda da insanların karına gəlir. Deyirlər, gilas ağacı yaxşı hamarlanır və xarratlar ondan mebel dəsti yığırlar. Qədim zamanlarda isə işığın olmadığı vaxtlarda qurumuş gilas qabığından çıraq kimi istifadə ediblər. Lələyinin ucunda ilişib qalmış sonuncu meyvələri urulanıb qurtaranadək ağacın həndəvərindən əl-ayaq yığışmaz. Üstündə meyvələri qurtarandan sonra yerə tökülmüş quruyan dənələrin hər biri kişmişə dönər.

Urulanmış gilas ağacı mağarı sökülmüş toy yerinə bənzəyir. İnanmaq istəmirsən ki, bir neçə gün irəli ağacın üstündə, az qala, hər budağa bir adam düşürdü. Sakit-sakit mürgüləyən gilas ağacı özü də elə bil həmin günlərin xatirəsi ilə yaşayır. Qupquru gövdəni qucaqlayıb üzünü onun sığallı üzünə söykəyib dərdləşmək, qəlbində, könlündə olanların hamısını ona danışmaq istəyirsən...

*Süleyman QARADAĞLI*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 110 (30514) 26 may 2024-cü il, bazar

İDMAN

## Paraatletimiz 4 qat dünya çempionu oldu

**Azərbaycan paraatleti Lamiyə Vəliyeva Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında 2-ci qızıl medalı qazanıb. Bununla da, o, 4-cü dəfə dünya çempionatının qalibi olub.**




Qeyd edək ki, paraatletika üzrə Azərbaycan millisi dünya çempionatında tarixi uğura imza atıb. Yarışı, ümumilikdə, 4 qızıl mükafatla başa vuran yığma ilk dəfə mundialda medal əyarına görə belə nəticə göstərib. Bunadək ən yaxşı göstərici 2011-ci ildə Yeni Zelandiyada keçirilmiş dünya çempionatında (3 qızıl, 1 gümüş və 2 bürünc medal) qeydə alınıb. Xatırladaq ki, Lamiyə Vəliyeva (T13) bundan əvvəl 100 metr məsafəyə qaçışda, Orxan Aslanov (T13) və Səid Nəcəfzadə (T12) isə uzunluğa tullanma üzrə yarışda qızıl medal qazanıblar.

## Avropa çempionatı: Daha 2 gümüş medal



**Bakı İdman Sarayında keçirilən U-23 Avropa çempionatında sərbəst güləş üzrə komandamız 2 gümüş medal qazanıb.**

Yığmamızın üzvləri Kənan Heybətov (70 kq) və Əli Tsokayev (79 kq) finalda uduzaraq 2-ci yeri tutublar.

Qeyd edək ki, bundan əvvəl 3 qızıl, 1 gümüş və 4 bürünc medal əldə edən yunan-Roma güləşi üzrə Azərbaycan millisi U-23 Avropa çempionatının qalibi olub. Bir dəst (1 qızıl, 1 gümüş, 1 bürünc) medal qazanan qadınlardan ibarət yığma isə ilk dəfə komanda hesabında 3-cü yeri tutub.

## Taekvondoçularımız 6 medal qazanıblar



**Türkiyənin paytaxtı Ankarada taekvondo üzrə Multi Avropa Oyunları keçirilir.**

Yarışda yeniyetmələrdən ibarət Azərbaycan milli komandasının 6 üzvü mükafatçılar sırasında yer alıb. Komandanın üzvlərindən bütün rəqiblərinə qalib gələn Novruz Əliyev (45 kq) qızıl medal qazanıb. Yalnız finalda məğlub olan Məryəm Cəfərova (41 kq) gümüş medala yiyələnib. Gülay Əliyeva (44 kq), Əli Həsənzadə (33 kq), Hüseyn Abbaslı (37 kq) və Hüseyn Məmmədov (+65 kq) isə 3-cü yeri tutublar.

Qeyd edək ki, yarışa mayın 26-də yekun vurulacaq.

***Leyla QURBANOVA***
***XQ***

Əbdül Mahmudov – 80

# Bu kino ki, var... xalqın simasıdır

**Müsahibimiz deyir ki, kino xalqın keçmişini, bugününü, gələcəyini əks etdirən, onu dünyaya tanıdan güclü təbliğat vasitəsidir. Bir də var kino adamı. O adam ki, adı çəkiləndə dərhal kino yada düşür. Həmsöhbətimiz belə sənətkarlardan biri, Xalq artisti Əbdül Mahmudovdur.**



***– Tanınmış kinoaktyor, Xalq artisti, Prezident təqaüdçüsü. Çox zəngin bioqrafiyadır. Özünüz buna necə baxırsınız?***

– Saydıqlarınız hamısı mənim fəxarətim, dövlətin, xalqın mənə olan diqqəti, qayğısıdır. Buna görə çox təşəkkür edirəm. Amma ən üstünü insanlıqdır. Qanımı qaraldan yeganə şey 80 rəqəmidir. Ətrafımdakı dostlar, doğmalar, həmkarlar dünyalarını dəyişiblər. Tez-tez onları düşünürəm və kədərlənirəm. Sonuncu ən ağır itkim Elxan Qasımov oldu. Adil İsgəndərov, Həsənağa Turabov, Həsən Məmmədov, Elçin Məmmədov kimi dostlar itirmişəm. Sağıma-soluma baxıram, boşluq mənə ağır gəlir.

Yaxşı ailədə dünyaya gəlmişəm, indiyə qədər ata-babama rəhmət oxutdurmuşam. Sənət aləmi də sağ olsun ki, məni gündəmdə saxlayır. Ailəm də var olsun ki, yanımdadır. Hərəsinin öz yeri var. İnsana daha nə lazımdır? Mənalı, məzmunlu, dolu bir ömür yaşamışam. Allahıma, Vətənimə, xalqıma borcluyam. Bu yaşımda da kinodayam, bir çox yaradıcı təşkilatların üzvüyəm. Onlardan biri də təməlçisi olduğum Rejissorlar Gildiyasıdır. Bugünlərdə 25 yaşı tamam olacaq. Onun təftiş komissiyasının sədriyəm.

***– Milli kinematoqrafiyanın aqibətindən söhbət düşəndə tez-tez sizə üz tuturlar. Biz də soruşaq: milli kino hara gedir?***

– Azərbaycan kinosunun halı acınacaqlıdır. Amma kinosuzluq faciəsini otuz il yaşamış adam kimi deyirəm ki, sabaha ümid var. Bu sahədə dövlət səviyyəsində ciddi işlər görülür. Dağılmış böyük bir industriyanı bərpa etmək iki-üç günün işi deyil. Kinonun beynəlxalq səviyyədə texniki standartlara cavab verən maddi-texniki bazası olmalıdır. Eləcə də o texnikanı idarə edən kadrlar. Köhnə kadrların əksəriyyəti dünyasını dəyişib. Kino yalnız aktyorla rejissorun əməyi deyil, bunun rəssamı, dekoratoru, kaskadyoru var... Film çəkilişləri dayanmayıb, azdan-çoxdan çəkilir. Xüsusən də, gənclərin yaratdıqları müstəqil kino şirkətlərini qeyd edərdim. Çəksinlər, peşəkar, ya qeyri-peşəkar, axır ki, dişləri-dırnaqları ilə işləyirlər. İşləsinlər, çünki işsiz qalıb hərzə-mərzə danışmaqdansa, iş görmək yaxşıdır. Zamanla yaxşısı-pisi ələkdən keçəcək, onların arasında gələcəyin kino dahiləri yetişəcək. Onlar da yaşamalıdır, bu sahənin adamları başqa iş bacarmaz. Bununla belə, qoy kinoman tamaşaçı bilsin ki, o filmlər peşəkar kino demək deyil.

***– Böyük və əlamətdar tarixi dönəmdə yaşayırıq. Zəfərimiz, Qarabağın azadlığı, doğma yurda qayıdış... Bütün bunlar kinoda öz əksini tapmalıdır.***

– Tapmalıdır, amma kino bir vərəq və bir qələmlə başa gəlmir, industriya lazımdır. Onu yaratmaq isə vaxt və güclü vəsait tələb edir. Bəli, bu kino ki var, çox qəliz məsələdir. Dostlarımdan biri bu yaxınlarda xarici ölkədən mənə zəng vurub deyir ki, burada küçədə "Yeddi oğul istərəm" filminin afişası çıxdı qarşıma. Qəhər məni boğdu. Kino, bax budur. Əlli iki il əvvəl çəkilən film bu gün də sənin mədəniyyətini başqa ölkələrdə sərgiləyir. Olmayan kinostudiyanın filmləri dünyanı gəzir, bizi tanıdır. Kino əbədi və əzəli təbliğat vasitəsidir.

***– Köhnə filmlər texniki baxımdan bugünkü standartlara cavab verməsə də, yenə baxılır...***

– Sözünüzə qüvvət, zəif hesab etdiyimiz o vaxtkı bəzi filmlər indi klasikaya çevrilib. Əgər millət, dövlət öz tarixi, keçmişi, milli-mənəvi dəyərləri ilə maraqlanıb onu təbliğ etmirsə, o millətin hər şeyi olsa da, heç nəyi olmayacaq.

***– "Bizim Cəbiş müəllim", "Dağlarda döyüş", "Dəli Kür" filmlərində rejissor assistenti olmağınızı az adam bilir. "Qanlı zəmi", "Gecə qatarında qətl" filmlərinin rejissorusunuz, ssenarilərinizi əsasında filmlər çəkilib. Həm də "Şah İsmayıl Xətai" kimi ekran həllini gözləyən ssenariniz var...***

– "Şah İsmayıl Xətai" filmini çəkmək Ulu öndərin təşəbbüsüdür. Ssenarini yazmaq mənə qismət oldu, çünki arxivlərdə qurdalanmaq mənim işimdir. Genişmiqyaslı iş başladıq. Film-epopeyadır, ssenari tam hazır idi, çəkilişlərə başlamaq ərəfəsində Heydər Əliyev dünyasını dəyişdi və iş dayandı. Bugünə qədər onu niyə davam elətdirmirik, səbəbini bilmirəm. İndi böyük kino bərpa olunmaq mərhələsinə başlayır. Yəqin ki, imkan yaradılar və o filmi çəkərik.

***– Adil İsgəndərovun kursunda aktyor ixtisası almısınız. Moskvada ali rejissorluq və ssenaristlər kursunda Andrey Tarkovski, Leonid Trauberq, Vasili Şukşin, Daneliya kimi böyük sənətkarların məktəbini keçmisiniz. Onlardan öyrəndikləriniz kinomuza nə verib?***

– Mənim kurs rəhbərim dünya kinosunun ustad sənətkarlarından biri sayılan Trauberq idi. Adlarını çəkdiyiniz digərləri sənət müəllimlərimdir. O vaxt Heydər Əliyev müxtəlif sahələrdən gəncləri Moskvada təhsil almağa göndərirdi. Bizi də Moskva Kinematoqrafiya İnstitutuna oxumağa yola saldılar. İndi kinonu çiyinlərində daşıyan həmin milli kadrlardır – aktyorlar, rejissorlar, kino rəssamları. Mən adi bir kənd uşağı kinonun belə qaynar mühitinə düşdüm. Kino həyatım kəndimizdən başlayıb. Mən axı qobustanlıyam. Orda əlinə kamera alan hər kəs kino çəkir. Göz açandan Rza Təhmasibi, Adil İsgəndərovu görmüşəm. Əlisəttar Atakişiyev, Tofiq Tağızadə, Hüseyn Seyidzadə ilə ünsiyyətdə, Həsən Turabovla, Leyla Bədirbəyli, Yusif Vəliyev ilə tərəf müqabili oldum. Diplom işimin qəhrəmanı Rasim Balayev idi. "Qeyri-adi ov" adlı həmin filmə musiqini Emin Sabitoğlu yazıb. O, bununla bəstəkar kimi kinoya qədəm qoyub. Vaqif Səmədoğlunun şeiri ilk dəfə bu filmdə səslənib, Flora Kərimova müğənni kimi birinci mənim filmimdə oxuyub. Nəticədə diplom işindən "əla" qiymət alıb, kinoda peşəkar qədəmlərimi atmışam. Yəni, kinoya onun içindən gəlmişəm.

***– Maraqlıdır, niyə bu sahədə əxz etdiklərinizi gənclərə öyrətmədiniz? Yəni pedaqoji fəaliyyətlə məşğul olmadınız?***

–Adil İsgəndərovun kinostudiyanın nəzdində yaratdığı kino kurslarında səkkiz il dərs demişəm. Mənim kursumda oxuyanların arasında Fuad Poladov, Almaz Əsgərova, Vaqif Mustafayev, Hacı İsmayılov var. İki il də Azərbaycan Teatr İnstitutunda aktyorluğu tədris etmişəm. Çəkilişlərdə çox məşğul olduğumdan dərs deməkdən tez uzaqlaşdım. Mən kinoçuyam, ölənə qədər də belə qalacağam.

***– Çox filmlərdə çəkilmisiniz, amma tamaşaçının yaddaşında daha çox "Yeddi oğul istərəm" və "Nəsimi" ekran əsərlərindəki obrazlarla qalmısınız...***

– Çəkildiyim filmlərin sayını itirmişəm, amma təbliğatını aparmamışam. Rejissorun, operatorun işi film çəkməkdir, təbliğatını aparmaq mənim işim deyil. Mən kinoya yalnız çəkilməyə deyil, ona xidmət etmək üçün gəlmişdim. Bu gün o təbliğata böyük ehtiyac var. Kinoindustriyanı bərpa etsək, qalanı təfərrüatdır.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***

## Güclü külək Gəncəyə əl qatıb...

**Gəncə şəhərində müşahidə olunan küləkli hava bir sıra fəsadlara yol açıb. Şəhərin bəzi yerlərində iri gövdəli ağaclar aşıb. Belə ki, Heydər Əliyev prospektində iri gövdəli ağacın evin üzərinə aşması nəticəsində tikiliyə ciddi ziyan dəyib.**

Digər yerlərdə də bəzi obyektlər zədələnib, ağaclar yollara aşıb. Şəhərin kommunal müəssisələrinin texnikası və canlı qüvvəsi dərhal hadisə yerlərinə yollanıb, lazımi kömək göstərib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə şəhəri**



Hava

## Yağıntılı, dumanlı və küləkli bazar günü



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 26-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən səhər və axşam bəzi yerlərdə arabir yağış yağacağı, gecəyə doğru şimşək çaxacağı ehtimalı var. Mülayim şimal küləyi əsəcək.***

Gecə 12-16°, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80 , gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 20-25°, dağlarda gecə 3-8°, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

İncəsənət

## "Tullantıdan sənətə" "yaşıl" yol

**Heydər Əliyev Fondunun təşəbbüsü, "Təmiz Şəhər" ASC-nin təşkilatçılığı, IDEA İctimai Birliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Q Gallery" incəsənət qalereyasının dəstəyi ilə IX Beynəlxalq "Tullantıdan sənətə" sərgisi keçirilir.**

Paytaxtın Qala qəsəbəsində yerləşən "Tullantıdan sənətə" muzeyində təşkil olunan sərginin əsas məqsədi insanların diqqətini ətraf mühitin mühafizəsinə yönəltmək, tullantıların həcmini azaltmaq və lazımsız hesab edilən əşyalardan sənət əsərləri ərsəyə gətirməkdir.




Bu il sərgiyə 9 ölkədən 12 xarici və 18 yerli sənət adamı qatılıb. Onlar "Sülh üçün yarat" mövzusunda tullantılardan düzəltdikləri nümunələri nümayiş etdiriblər.

Qeyd edək ki, 2012-ci ildən ənənəvi olaraq keçirilən sərgidə ötən müddət ərzində dünyanın 46 ölkəsindən 200-dən çox yaradıcı şəxs iştirak edib və onların əl işləri Qala Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yaradılan "Tullantıdan sənətə" muzeyində nümayiş olunur.

***S.FİDAN***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3979
SİFARİŞ 1129
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00